"Yapı Kredi Bank Azərbaycan" QSC

31 dekabr 2017-ci il tarixinə

Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun Konsolidasiya Edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı

Mündəricat

Müstəqil Auditorun Hesabatı

Konsolidasiya Edilmiş Maliyyə Hesabatları

Konsolidasiya Edilmiş Maliyyə Vəziyyəti haqqında Hesabat 1
Konsolidasiya Edilmiş Mənfəət və ya Zərər və sair Məcmu Gəlir haqqında Hesabat 2
Konsolidasiya Edilmiş Kapitalda Dəyişikliklər haqqında Hesabat 3
Konsolidasiya Edilmiş Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat 4

Konsolidasiya Edilmiş Maliyyə Hesabatları üzrə Qeydlər

1. Giriş 5
2. Qrupun Əməliyyat Mühiti 5
3. Əsas Uçot Siyasətləri 6
4. Yeni Uçot Qaydaları 15
5. Mühüm Mühasibat Uçotu Mühakimələri və Qiymətləndirmələri 18
6. Seqmentlər üzrə Məlumat 18
7. Pul Vəsaitləri və onların Ekvivalentləri 20
8. Kredit Təşkilatlarından Alınacaq Məbləğlər 21
9. Müştərilərə Verilmiş Kreditlər 21
10. ARMB tərəfindən Buraxılmış Notlar və digər Təşkilatların İstiqrazları 27
11. Əmlak və Avadanlıqlar 28
12. Qeyri-Maddi Aktivlər 29
13. Vergilər 29
14. Digər Aktiv və Öhdəliklər 30
15. ARMB Qarşısında Öhdəliklər 31
16. Kredit Təşkilatları Qarşısında Öhdəliklər 31
17. Müştərilər Qarşısında Öhdəliklər 32
18. Nizamnamə Kapitalı 32
19. Təəhhüdlər və Şərti Öhdəliklər 33
20. Xalis Haqq və Komissiya Gəlirləri 34
21. İşçilər üzrə Xərclər 34
23. Risklərin İdarə Olunması 35
24. Maliyyə Alətlərinin Ədalətli Dəyəri 40
25. Aktiv və Öhdəliklərin Ödəmə Müddətləri üzrə Təhlili 42
26. Əlaqəli Tərəflər haqqında Məlumatların Açıqlanması 43
27. Kapitalın Adekvatlığı 44
28. Hesabat Tarixindən Sonrakı Hadisələr 45

Müstəqil Auditorun Hesabatı

"Yapı Kredi Bank Azərbaycan" QSC-nin Səhmdarlarına və İdarə Heyətinə:

Rəy

Bizim fikrimizcə, hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "Yapı Kredi Bank Azərbaycan" QSC-nin və onun törəmə müəssisəsinin (birlikdə "Qrup") 31 dekabr 2017-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (BMHS) uyğun olaraq düzgün əks etdirir.

Auditin predmeti

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatları aşağıdakılardan ibarətdir:

- 31 dekabr 2017-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat; və
- əsas uçot siyasətləri və digər izahedici məlumatlar da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər.

Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz rəyimizin *"konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti"* bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Müstəqillik
Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz Etika Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

Digər məsələ
Qrupun 31 dekabr 2016-cı il tarixində başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə hesabatları digər audit şirkəti tərəfindən yoxlanılmış və həmin maliyyə hesabatları üzrə 26 aprel 2017-ci il tarixində şərtsiz rəy bildirilmişdir.

Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Qrupu ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Qrupun daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətlərinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin konsolidasiya edilmiş maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.
- Konsolidasiya edilmiş maliyyə hesabatlarına dair rəy bildirmək üçün Qrupa daxil olan müəssisələrin maliyyə məlumatları və ya fəaliyyəti ilə bağlı yetərli müvafiq audit sübutu əldə edirik. Biz qrup auditinin idarə edilməsi, nəzarəti və həyata keçirilməsi üçün məsuliyyət daşıyırıq. Biz auditor rəyimizə görə tam məsuliyyət daşıyırıq.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

14 may 2018-ci il

Bakı, Azərbaycan Respublikası

PraysvoterhausKupers Audit Azərbaycan MMC
Landmark Ofis Plaza III, 12ci mərtəbə, 90A Nizami küçəsi
AZ 1010, Bakı, Azərbaycan
T: +994 (12) 497 25 15, F:+994 (12) 497 74 11, www.pwc.com/az

"Yapı Kredi Bank Azərbaycan" QSC
Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat
(min Azərbaycan manatı ilə)

	Qeyd	31 dekabr 2017	31 dekabr 2016
AKTİVLƏR			
Pul vəsaitləri və onların ekvivalentləri	7	263,695	219,972
Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılmış notlar və digər təşkilatların istiqrazları	10	32,678	2,647
Kredit təşkilatlarından alınacaq məbləğlər	8	2,380	30,755
Müştərilərə verilmiş kreditlər	9	118,554	185,126
Əmlak və avadanlıqlar	11	5,210	7,260
Qeyri-maddi aktivlər	12	7,952	7,933
Digər aktivlər	14	7,993	6,362
CƏMİ AKTİVLƏR		**438,462**	**460,055**
ÖHDƏLİKLƏR			
Azərbaycan Respublikası Mərkəzi Bankı qarşısında öhdəliklər	15	-	20,023
Kredit təşkilatları qarşısında öhdəliklər	16	4,317	51,966
Müştərilər qarşısında öhdəliklər	17	343,137	314,794
Cari il üzrə mənfəət vergisi öhdəlikləri		1,708	-
Təxirə salınmış mənfəət vergisi öhdəlikləri	13	2,370	3,077
Digər öhdəliklər	14	5,931	5,359
CƏMİ ÖHDƏLİKLƏR		**357,463**	**395,219**
KAPİTAL			
Nizamnamə kapitalı	18	55,381	46,811
Bölüşdürülməmiş mənfəət		25,618	18,025
CƏMİ KAPİTAL		**80,999**	**64,836**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL		**438,462**	**460,055**

14 may 2018-ci il tarixində Bankın İdarə Heyəti adından təsdiqlənmiş və imzalanmışdır:

Cenk Yüksel
İdarə Heyətinin Sədri / Baş Direktor

Mətanət Qasımova
Baş Mühasib

Ramin Səftərov
Maliyyə Hesabatları Departamentinin Müdiri

5-45-ci səhifələrdəki qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.

	Qeyd	2017	2016
Faiz gəlirləri			
Müştərilərə verilmiş kreditlər	9	24,510	33,154
Kredit təşkilatlarından alınacaq məbləğlər	8	2,600	173
İnvestisiya qiymətli kağızları		1,664	25
Faiz xərcləri			
Müştərilər qarşısında öhdəliklər	17	(6,631)	(5,125)
Kredit təşkilatları qarşısında öhdəliklər	16	(1,362)	(4,557)
Buraxılmış borc qiymətli kağızları		-	(2,947)
Xalis faiz gəlirləri		**20,781**	**20,723**
Faiz hesablanan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat	9	(875)	(20,392)
Faiz hesablanan aktivlərin dəyərsizləşməsi üçün ehtiyatdan sonra xalis faiz gəliri		**19,906**	**331**
Xalis haqq və komissiya gəlirləri	20	5,619	6,310
Xarici valyuta ilə əməliyyatlar üzrə zərər çıxılmaqla gəlir		11,668	17,860
Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə xalis gəlir		(724)	1,543
Digər gəlirlər		73	20
Qeyri-faiz gəliri		**16,636**	**25,733**
İşçilər üzrə xərclər	21	(11,840)	(11,859)
Ümumi və inzibati xərclər	22	(11,018)	(10,661)
Amortizasiya xərcləri	11,12	(4,827)	(4,777)
Digər dəyərsizləşmə və ehtiyatların bərpası / (digər dəyərsizləşmə və ehtiyatlar)		(7)	(14)
Qeyri-faiz xərcləri		**(27,692)**	**(27,311)**
Vergidən əvvəlki mənfəət/(zərər)		**8,850**	**(1,247)**
Mənfəət vergisi xərci	13	(1,257)	(1,874)
İL ÜZRƏ MƏNFƏƏT/(ZƏRƏR)		**7,593**	**(3,121)**
Sair məcmu gəlir/(zərər)			
İl üzrə sair məcmu gəlir		-	-
İl üzrə sair məcmu gəlir/(zərər)		**7,593**	**(3,121)**
İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR/(ZƏRƏR)		**7,593**	**(3,121)**

	Qeyd	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi
1 yanvar 2016-cı il tarixinə qalıq		**46,811**	**21,146**	**67,957**
İl üzrə zərər		-	(3,121)	**(3,121)**
İl üzrə cəmi məcmu zərər		**-**	**(3,121)**	**(3,121)**
31 dekabr 2016-cı il tarixinə qalıq		**46,811**	**18,025**	**64,836**
İl üzrə mənfəət		-	7,593	**7,593**
İl üzrə cəmi məcmu gəlir		**-**	**7,593**	**7,593**
Səhm emissiyası	18	8,570	-	**8,570**
31 dekabr 2017-ci il tarixinə qalıq		**55,381**	**25,618**	**80,999**

Min Azərbaycan manatı ilə	Qeyd	2017	2016
Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Alınmış faizlər		28,814	28,648
Ödənilmiş faizlər		(8,197)	(14,348)
Alınmış haqq və komissiyalar		11,271	10,139
Ödənilmiş haqq və komissiyalar		(5,577)	(3,695)
Xarici valyuta ilə əməliyyatlar üzrə zərər çıxılmaqla reallaşdırılmış gəlir		11,668	17,860
Alınmış digər gəlirlər		66	20
İşçilər üzrə ödənilmiş xərclər		(11,531)	(12,184)
Ödənilmiş digər əməliyyat xərcləri		(10,375)	(10,703)
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti		**16,139**	**15,737**
Əməliyyat aktivlərində xalis (artım)/azalma:			
Kredit təşkilatlarından alınacaq məbləğlər		28,375	51,509
Müştərilərə verilmiş kreditlər		65,566	51,036
Digər aktivlər		(1,658)	(2,393)
Əməliyyat öhdəliklərində xalis artım/(azalma):			
ARMB qarşısında öhdəliklər		(20,000)	-
Kredit təşkilatları qarşısında öhdəliklər		(46,919)	(69,737)
Müştərilər qarşısında öhdəliklər		27,794	102,053
Digər öhdəliklər		141	2,195
Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri		**69,438**	**150,400**
Ödənilmiş mənfəət vergisi		(231)	(1,250)
Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri		**69,207**	**149,150**
İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
İstiqrazların satılması/(alınması)		2,587	(2,561)
Əmlak və avadanlıqların alınması	11	(1,544)	(836)
Qeyri-maddi aktivlərin alınması	12	(1,873)	(3,797)
İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri		**(830)**	**(7,194)**
Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
(Buraxılmış istiqrazların geri alınması)/buraxılmış istiqrazlardan daxilolmalar		-	(48,649)
Adi səhmlərin emissiyası	18	8,570	-
Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri		**8,570**	**(48,649)**
Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri		(606)	5,017
Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım		**76,341**	**98,324**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri		**219,972**	**121,648**
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	7, 10	**296,313**	**219,972**

Qrupun siyasətinə uyğun olaraq pul vəsaitləri və onların ekvivalentlərinə 32,618 AZN (2016: sıfır AZN) məbləğində Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılmış notlar daxildir.

1. Giriş

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2017-ci il tarixində başa çatan il üçün Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq "Yapı Kredi Bank" QSC ("Bank") və onun törəmə müəssisəsi üçün (birlikdə "Qrup") hazırlanmışdır.

Yapi Kredi Bank Azərbaycan ("Yapı Kredi Bank") Azərbaycan Respublikasında təsis edilmişdir və Azərbaycan Respublikasında yerləşir. Yapi Kredi Bank Azərbaycan məhdud məsuliyyətli qapalı səhmdar cəmiyyətdir və Azərbaycanın normativ-hüquqi aktlarına uyğun olaraq qurulmuşdur.

Əsas fəaliyyət. Yapı Kredi Bankın əsas fəaliyyəti Azərbaycan Respublikasında kommersiya və pərakəndə bank əməliyyatlarının həyata keçirilməsidir. Yapı Kredi Bank Azərbaycan Respublikası Mərkəzi Bankının ("ARMB") 11 yanvar 2000-ci ildə verdiyi 243 qeydiyyat nömrəli tam bank lisenziyası əsasında fəaliyyət göstərir. Yapı Kredi Bank Azərbaycan Respublikasının 29 dekabr 2006-cı il tarixli "Əmanətlərin sığortalanması haqqında" Qanununda nəzərdə tutulan əmanətlərin sığortalanması üzrə dövlət proqramında iştirak edir. Əmanətlərin Sığortalanması Fondu fiziki şəxslərin AZN üçün illik kredit faizi 15%-i, xarici valyutalar üçün isə 3%-i keçməyən əmanətlərinin tam qaytarılmasına zəmanət verir.

31 iyul 2007-ci il tarixində Yapi Kredi Bank Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində "Yapı Kredi Invest" MMC adlı tam mülkiyyətində olan broker törəmə müəssisəsini ("törəmə müəssisə") qeydiyyata almışdır. Törəmə müəssisə 2008-ci ilin fevral ayında əməliyyatlarına başlamış və dilinq və broker əməliyyatları ilə məşğul olur. 31 dekabr 2017-ci il tarixinə "Yapı Kredi Invest" MMC likvidasiya olunmuşdur. Törəmə müəssisəsinin rəsmi ünvanı belədir: Azərbaycan Respublikası, Bakı, AZ1078, Cəlil Məmmədquluzadə küçəsi, 73G.

Qrupun hüquqi və faktiki ünvanı. Qrupun hüquqi və faktiki ünvanı aşağıdakı kimidir: Azərbaycan Respublikası, Bakı, AZ1078, Cəlil Məmmədquluzadə küçəsi, 73G.

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarına "Yapı Kredi Bankın" və onun törəmə müəssisəsinin (birlikdə "Bank") maliyyə hesabatları daxildir.

Bankın Azərbaycan Respublikasında 7 filialı (2016: 13 filial) və 1 müştəri xidmətləri şöbəsi (2016: 1 müştəri xidmətləri şöbəsi) vardır. 31 dekabr 2017-ci il tarixinə Bankın 289 nəfər işçisi olmuşdur (2016: 381 nəfər).

31 dekabr 2017 və 2016-cı il tarixlərinə Bankın səhmdar strukturunda səhmdarların payları aşağıdakı kimi olmuşdur:

Səhmdarlar	%
Yapı və Kredi Bankası A.Ş.	99.8
YK Yatirim Menkul Degerler A.Ş.	0.1
YK Lease A.Ş.	0.1
Cəmi	**100.0**

Türkiyədə təsis edilmiş "Yapı ve Kredi Bankası A.Ş." ("YKB") Bankın əsas baş müəssisəsidir. YKB-nin səhmləri 1987-ci ildən etibarən İstanbul Fond Birjasında ("İFB") ticarət edilir. 31 dekabr 2017-ci il tarixinə YKB-nin səhmlərinin 18.20%-i birjalarda açıq şəkildə ticarət edilmişdir (31 dekabr 2016: 18.20%). Qalan 81.80% Koç Finansal Hizmetler A.Ş. ("KFS") şirkətinin mülkiyyətindədir. KFS şirkətinin əsas səhmdarları "UniCredito Italiano SPA" və "Koç Holding" şirkətləridir və hər birinin mülkiyyət payı 50% təşkil edir.

2. Qrupun Əməliyyat Mühiti

Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir. Azərbaycan iqtisadiyyatının mövcud və gələcək inkişafı və sabitliyi hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neftin qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

Neft qiymətlərindəki azalmanın nəticəsi olaraq 2015-ci ildə milli valyutanın əsas xarici valyutalara qarşı devalvasiyasından sonra əməliyyat mühiti son dərəcə qeyri-müəyyən qalmışdır.

Hökumət uzunmüddətli iqtisadi sabitliyi və dayanıqlığı təmin etmək üçün islahatları sürətləndirmişdir. Belə ki, 2017-ci il ərzində hökumət sərt pul siyasətini davam etdirmiş və Azərbaycan manatının mövqeyinin sabitləşdirilməsinə yönəldilmiş xarici valyuta ehtiyatları ayırmışdır.

2. Qrupun Əməliyyat Mühiti (davamı)

2018-ci ilin yanvar ayında "Standard & Poor's" reytinq agentliyi Azərbaycanın suveren kredit reytinqini mənfi proqnozdan sabitə dəyişərək "BB+" səviyyəsində saxlayıb. Eyni zamanda agentlik Azərbaycanın uzunmüddətli suveren kredit reytinqini xarici və milli valyutada "BB+/B" səviyyəsində təsdiqləyib. Agentlik Azərbaycanın iqtisadi artımının orta səviyyədə bərpa olunacağını, lakin hələ də neft sənayesi tendensiyalarından və dövlət investisiyalarından asılı olacağını proqnozlaşdırır.

Qrupun rəhbərliyi mövcud iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Bankın yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür. Buna baxmayaraq, mövcud iqtisadi vəziyyətin gələcək təsirini qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər

3. Əsas Uçot Siyasətləri

Standartlar, şərhlər və düzəlişlər. Aşağıdakı yenidən işlənmiş standartlar 1 yanvar 2017-ci il tarixindən qüvvəyə minmiş, lakin Qrupa əhəmiyyətli dərəcədə təsir göstərməmişdir:

- "Məlumatların açıqlanması" – BMS 7-yə dəyişikliklər (29 yanvar 2016-cı ildə dərc olunub və 1 yanvar 2017-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). 31 dekabr 2017-ci il tarixinə Qrupun maliyyə fəaliyyətindən yaranan öhdəlikləri olmadığına görə bu standarta edilmiş dəyişikliklər Qrupun maliyyə hesabatlarına təsir göstərməmişdir.
- Reallaşdırılmamış zərərlər üzrə təxirə salınmış vergi aktivlərinin tanınması – BMS 12-yə dəyişikliklər (19 yanvar 2016-cı ildə dərc olunub və 1 yanvar 2017-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu standarta edilmiş dəyişikliklər Qrupun maliyyə hesabatlarına təsir göstərməmişdir.
- 2014-2016-cı illərdə dərc edilmiş BMHS-lərin illik təkmilləşdirilməsinə daxil olan BMHS 12-yə dəyişikliklər (8 dekabr 2016-cı ildə dərc olunub və 1 yanvar 2017-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu standarta edilmiş dəyişikliklər Qrupun maliyyə hesabatlarına təsir göstərməmişdir.

Maliyyə hesabatlarının tərtibatının əsasları. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası ("BMUSŞ") tərəfindən dərc olunmuş Beynəlxalq Maliyyə Hesabatı Standartları ("BMHS") əsasında hazırlanmışdır.

Azərbaycan manatı Bankın hesabat və funksional valyutasıdır, çünki əməliyyatların əksəriyyəti Azərbaycan manatı ilə ifadə edilir, ölçülür və ya maliyyələşdirilir. Digər valyutalarla aparılan əməliyyatlar xarici valyuta ilə əməliyyatlar kimi uçota alınır. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında rəqəmlər, səhmlərin sayı və xüsusi qeyd edilmiş hallar istisna olmaqla, min Azərbaycan manatı (AZN) ilə təqdim edilir.

Aşağıdakılar üzrə yekunlaşdırılmış mühüm mühasibat uçotu prinsiplərindən bu maliyyə hesabatlarının hazırlanmasında istifadə olunub və əvvəlki ildə istifadə olunanla uyğunluq təşkil edir.

Bu maliyyə hesabatları BMHS-in hər bir aktiv, öhdəlik, gəlir və xərc üzrə müəyyən etdiyi ölçü prinsiplərindən istifadə edilməklə hazırlanmış və ardıcıl qaydada tətbiq edilmişdir. Ölçü əsasları aşağıdakı mühasibat uçotu prinsiplərində daha ətraflı təsvir edilmişdir.

Konsolidasiya edilmiş maliyyə hesabatları. Törəmə müəssisələr, yəni Bankın nəzarət etmək imkanı olduğu bütün müəssisələr, konsolidasiya edilir. Nəzarət bu halda yaranır ki, Bank investisiya obyektində iştirakı ilə bağlı dəyişən zərərə məruz qalsın və ya gəlir əldə etmək hüququna malik olsun və investisiya obyekti üzrə nəzarət hüququ vasitəsilə həmin gəlirlərə təsir etmək imkanını qazansın. Xüsusilə, Bank investisiya obyektinə yalnız və yalnız o halda nəzarət edir ki, Bank:

- İnvestisiya obyekti üzrə nəzarət hüququna malik olsun (yəni mövcud olan səsvermə hüquqları hazırda investisiya obyektinin müvafiq fəaliyyətini idarə etmək imkanını versin);
- İnvestisiya obyektində iştirakla bağlı risk və ya dəyişən gəlirlər əldə etmək hüququna malik olsun; və
- Gəlirlərə təsir göstərmək üçün investisiya obyekti üzrə nəzarəti istifadə etmək imkanına malik olsun.

Ümumiyyətlə, fərziyyəyə görə səsvermə hüquqlarının çoxluğu nəzarətin əldə edilməsi ilə nəticələnir. Bu fərziyyəyə dəstək üçün və Bank səsvermə hüquqlarının və ya investisiya obyektində analoji hüquqların çoxluğundan az paya sahib olanda Bank investisiya obyekti üzrə nəzarət hüququnun olub-olmadığını qiymətləndirərkən bütün müvafiq fakt və şəraitləri, o cümlədən aşağıdakıları nəzərdən keçirir:

3. Əsas Uçot Siyasətləri (davamı)

- İnvestisiya obyektində digər səsvermə hüquqlarının sahibləri ilə müqavilə razılaşması (razılaşmaları);
- Digər müqavilə razılaşmalarından irəli gələn hüquqlar;
- Bankın səsvermə hüquqları və potensial səsvermə hüquqları.

Törəmə müəssisələr nəzarət Banka keçdiyi tarixdən konsolidasiya edilir və nəzarət başa çatdıqdan sonra konsolidasiya dayandırılır. Bütün qrupdaxili əməliyyatlar, balanslar və qrup şirkətləri arasında əməliyyatlardan əldə edilən reallaşdırılmamış gəlirlər tamamilə silinir. Aparılmış əməliyyatlar köçürülən aktivin dəyərsizləşməsini göstərmirsə, reallaşdırılmamış zərərlər də silinir. Zərurət yarandıqda, Bankın qəbul etdiyi siyasətə uyğunlaşmaq məqsədilə törəmə müəssisələrin uçot siyasətində dəyişiklik aparılır.

Törəmə müəssisənin mülkiyyət payındakı dəyişiklik, nəzarət hüququ dəyişmədikdə, kapital əməliyyatı kimi uçota alınır. Zərərlər defisitli saldo ilə nəticələnsə də, qeyri-nəzarət iştirak payına aid edilir.

Bank törəmə müəssisə üzrə nəzarəti itirdikdə, o, törəmə müəssisənin aktivləri (o cümlədən qudvili) və öhdəlikləri, qeyri-nəzarət paylarının balans dəyəri, kapitalda qeydə alınmış ümumi məzənnə fərqlərini uçotdan silir; əldə edilmiş vəsaitin ədalətli dəyərini, saxlanılan investisiyanın ədalətli dəyərini və mənfəət və ya zərərdə hər hansı əlavəni və ya defisiti tanıyır və əvvəl sair məcmu gəlirdə tanınmış komponentlərdə əsas şirkətin payını mənfəətə və ya zərərə yenidən təsnif edir.

Ədalətli dəyərin qiymətləndirilməsi. Bank satış üçün mövcud olan qiymətli kağızları və törəmə alətləri kimi maliyyə alətlərini hər hesabat tarixində ədalətli dəyərlə ölçür. Amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə alətlərinin ədalətli dəyərləri Qeyd 24-də açıqlanır.

Ədalətli dəyər ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyat zamanı aktivin satılması üçün alına bilən və ya öhdəliyi köçürmək üçün ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- Aktiv və ya öhdəlik üçün əsas bazar; və ya
- Əsas bazar olmadıqda, aktiv və ya öhdəlik üçün ən əlverişli bazar.

Bankın əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülür və ehtimal edilir ki, bazar iştirakçıları bu zaman öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər. Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının, aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya həmin aktivi maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla, iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Bank mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq bazar məlumatlarını maksimal istifadə edən və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarını istifadə edir.

Maliyyə hesabatlarında ədalətli dəyəri ölçülən və ya təqdim edilən bütün aktivlər və öhdəliklər ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında ədalətli dəyər iyerarxiyasının daxilində aşağıda təsvir olunan kateqoriyalara bölünür:

- Səviyyə 1 – Oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda kotirovka edilmiş (təshih edilməmiş) qiymətləri mövcud olanlar;
- Səviyyə 2 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları;
- Səviyyə 3 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Bank hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində Səviyyələr arasında hərəkətin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

3. Əsas Uçot Siyasətləri (davamı)

Maliyyə aktivləri

İlkin tanınma. BMS 39 ilə əhatə olunan maliyyə aktivləri müvafiq qaydada ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri, kreditlər və debitor borcları və ya satış üçün mövcud olan maliyyə aktivlərinə təsnif edilir.

Bank maliyyə aktivlərini ilkin tanınma zamanı təsnifləşdirir və sonra aşağıda təsvir olunan müəyyən hallarda maliyyə aktivlərini yenidən təsnif edə bilər.

Tanınma tarixi. Maliyyə aktivlərinin bütün müntəzəm alışları və satışları alqı-satqı tarixində, yəni Bank aktivi almaq öhdəliyini üzərinə götürdüyü tarixdə tanınır. Müntəzəm alış və ya satış əməliyyatlarına qanunvericiliklə və ya bazar razılaşmaları ilə ümumi şəkildə müəyyən edilmiş müddət ərzində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alınması və ya satılması daxildir.

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri. Ticarət məqsədləri üçün saxlanılan maliyyə aktivləri kimi təsnif edilmiş maliyyə aktivləri "Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri" kateqoriyasına daxil edilir. Maliyyə aktivləri ticarət məqsədləri üçün saxlanılan maliyyə aktivləri kimi o halda təsnif edilir ki, onlar yaxın zamanda satılmaq məqsədilə alınmış olsun. Təyin edilmiş və effektiv hedcinq alətləri olmayan törəmə aktivlər də ticarət məqsədləri üçün saxlanılan maliyyə aktivləri kimi təsnif edilir. Ticarət məqsədləri üçün saxlanılan maliyyə aktivləri üzrə gəlir və ya zərərlər zərər və gəlirdə öz əksini tapır.

Kreditlər və debitor borcları. Kreditlər və debitor borcları fəal bazarda dövr etməyən, dəyişməz və ya müəyyən edilə bilən ödənişli qeyri-törəmə maliyyə aktivləridir. Onlar dərhal və ya qısa müddətdə satılmaq üçün nəzərdə tutulmur, ticarət qiymətli kağızları kimi təsnif edilmir və ya satış üçün mövcud olan investisiya qiymətli kağızları kimi göstərilmir. Belə aktivlər effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə əks etdirilir. Gəlir və zərərlər konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda kreditlər və debitor borcları uçotdan çıxarılanda və ya dəyərsizləşəndə, eləcə də amortizasiyanın hesablanması prosesində əks etdirilir.

Satış üçün mövcud olan maliyyə aktivləri. Satış üçün mövcud olan maliyyə aktivləri satış üçün təyin edilmiş və ya yuxarıda göstərilən üç sinifdən heç birinə təsnif edilməyən qeyri-törəmə maliyyə aktivləridir. İlkin tanınmadan sonra satış üçün mövcud olan maliyyə aktivləri ədalətli dəyərlə ölçülür və bu zaman gəlir və ya xərclər investisiyanın tanınması dayanana və ya investisiyanın dəyərsizləşməsi müəyyən edilənə qədər sair məcmu gəlirin tərkibində əks etdirilir. Belə halda əvvəl sair məcmu gəlirin tərkibində əks etdirilmiş məcmu gəlir və ya zərər konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda yenidən təsnif edilir. Bununla bərabər effektiv faiz dərəcəsi metodu ilə hesablanmış faizlər konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda əks etdirilir.

Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi. Ticarət üçün saxlanılan aktiv kimi təsnif edilmiş qeyri-törəmə maliyyə aktivi artıq yaxın zamanda satılmaq məqsədilə saxlanılmırsa, aşağıdakı hallardan birində ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri kateqoriyasından çıxarıla bilər:

- yuxarıda göstərilmiş kreditlər və debitor borcları anlayışına uyğun olan maliyyə aktivi bu halda kreditlər və debitor borcları kateqoriyasına yenidən təsnif edilə bilər ki, Bank onu yaxın gələcəkdə və ya ödəmə müddəti tamamlananadək saxlamaq niyyətində və qabiliyyətində olsun;
- digər maliyyə aktivləri yalnız nadir hallarda satış üçün mövcud olan və ya ödəmə müddəti tamamlanana qədər saxlanılan aktivlər kimi yenidən təsnif edilə bilər.

Kreditlər və debitor borcları tərifinə uyğun olan satış üçün mövcud olan maliyyə aktivi Bank onu yaxın gələcəkdə və ya ödəmə müddəti tamamlananadək saxlamaq niyyətinə və imkanına malikdirsə, kreditlər və debitor borcları kateqoriyasına yenidən təsnif edilə bilər.

Maliyyə aktivləri yenidən təsnif etmə tarixində ədalətli dəyərlə yenidən təsnif edilir. Mənfəət və ya zərərdə artıq tanınmış olan gəlir və ya zərər qaytarılmır. Yenidən təsnif etmə tarixində maliyyə aktivinin ədalətli dəyəri onun, hansı daha münasibdirsə, yeni dəyərinə və ya amortizasiya edilmiş dəyərinə bərabər olur.

3. Əsas Uçot Siyasətləri (davamı)

Pul vəsaitləri və onların ekvivalentləri. Pul vəsaitləri və onların ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qoyuluşlardır. Pul vəsaitləri və onların ekvivalentlərinə Mərkəzi Bankdakı məcburi ehtiyatlar və ödəmə müddəti üç aydan az olan banklararası depozitlər daxildir. Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudlaşdırılmış vəsaitlər pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınır.

"Repo" və "əks-repo" razılaşmaları. Qiymətli kağızların satılması və geri alınması razılaşmaları ("REPO" razılaşmaları) təminatlı maliyyələşdirmə əməliyyatları kimi əks etdirilir. "REPO" razılaşmaları əsasında satılmış qiymətli kağızlar konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilir. Qiymətli kağızları alan tərəf müqavilə şərtlərindən və ya qəbul edilmiş təcrübədən irəli gələrək həmin qiymətli kağızların satılması və ya yenidən girov qoyulması hüququna malik olduqda, "REPO" razılaşmaları əsasında girov qoyulan qiymətli kağızlar kimi yenidən təsnif edilir. Müvafiq öhdəliklər kredit təşkilatlarına və ya müştərilər qarşısında öhdəliklərin tərkibində təqdim olunur. Geri satılma ("əks-REPO") razılaşmaları əsasında alınmış qiymətli kağızlar əhəmiyyətli olanda maliyyə vəziyyəti haqqında hesabatda ayrıca hesab və ya şəraitdən asılı olaraq pul vəsaitləri və ya pul vəsaitlərinin ekvivalentləri və müştərilərə verilmiş kreditlər kimi əks etdirilir. Satış qiyməti ilə geri alış qiyməti arasında fərq faiz hesab olunur və effektiv gəlirlilik metodundan istifadə etməklə "REPO" razılaşmalarının müddəti ərzində hesablanır.

Tərəfdaşlara verilmiş qiymətli kağızlar konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda saxlanılır. Borc götürülmüş qiymətli kağızlar konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin qiymətli kağızlar üçüncü tərəflərə satılanda alış və satış konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda ticarət qiymətli kağızlarından zərərləri çıxmaqla gəlirlərin tərkibində əks etdirilir. Onların qaytarılması öhdəliyi ədalətli dəyərlə ticarət öhdəliyi kimi əks etdirilir.

Borc öhdəlikləri. Buraxılmış maliyyə alətləri və ya onların komponentləri o halda öhdəlik kimi təsnif edilir ki, müqavilə razılaşması Bankın üzərinə aşağıdakı öhdəliklərdən birinin qoyulması ilə nəticələnsin: sahibə pul vəsaitləri və ya öhdəliyi müəyyən məbləğdə pul vəsaitinin və ya digər maliyyə aktivinin müəyyən sayda xüsusi kapital alətlərinə mübadilə etməkdən fərqli olan yolla ödəmək. Belə alətlərə ARMB qarşısında öhdəliklər, kredit təşkilatları qarşısında öhdəliklər, müştərilər qarşısında öhdəliklər və buraxılmış borc qiymətli kağızları daxildir. İlkin tanınmadan sonra borclar amortizasiya olunmuş dəyərlə, effektiv faiz metodundan istifadə etməklə ölçülür. Gəlir və zərərlər konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda borclar silindikdə, eləcə də amortizasiyanın hesablanması prosesində əks etdirilir.

Bank öz borcunu satın alırsa, o zaman bu borc konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasında fərq konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda tanınır.

Lizinq

Əməliyyat lizinqi – Bank lizinqalan qismində. Lizinq obyektlərinin mülkiyyət hüququ ilə əlaqədar risk və gəlirlər lizinqverən tərəfindən Banka ötürülmədikdə, aktivlərin lizinqi əməliyyat lizinqi hesab olunur. Əməliyyat lizinqi əsasında ödənişlər lizinqin müddəti ərzində bərabər hissələrə bölmək metoduna əsasən ümumi və adminstrativ xərclərin tərkibinə daxil edilir.

Maliyyə alətlərinin ilkin tanınmada ölçülməsi. İlkin tanınma zamanı maliyyə alətləri ədalətli dəyərlə ölçülür. Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunmayan alətlərin ədalətli dəyərlərinə əməliyyatla birbaşa əlaqəsi olan xərclər əlavə edilir.

Adətən, ilkin tanınmada maliyyə alətinin ədalətli dəyərinin ən yaxşı sübutu əməliyyat qiymətidir. Bank ilkin tanınmada ədalətli dəyərin əməliyyat qiymətindən fərqli olduğunu müəyyən edərsə, onda:

- Ədalətli dəyər fəal bazarda oxşar aktivlər və ya öhdəliklərin kotirovkaları ilə sübuta yetirilirsə (yəni Səviyyə 1 giriş məlumatları) və ya yalnız müşahidə edilə bilən bazarlarda əldə edilən məlumatları istifadə edən qiymətləndirmə üsullarına əsaslanırsa, Bank ilkin tanınmada ədalətli dəyər və əməliyyat qiyməti arasındakı fərqi gəlir və ya zərər kimi tanıyır;
- Bütün digər hallarda maliyyə alətinin ilkin qiymətləndirməsində ilkin tanınmada ədalətli dəyər və əməliyyat qiyməti arasındakı fərqi təxirə salmaq üçün düzəliş aparılır. İlkin tanınmadan sonra Bank bu təxirə salınmış fərqi gəlir və ya xərc kimi yalnız giriş məlumatları müşahidə edilə biləndə və ya alət uçotdan çıxarılanda tanıyır.

3. Əsas Uçot Siyasətləri (davamı)

Maliyyə alətlərinin əvəzləşdirilməsi. Bank maliyyə aktivləri və maliyyə öhdəliklərinin tanınmış məbləğlərini qarşılıqlı əvəz etmək üçün qanuni hüquqa malik olduğu və ya hesablaşmanı əvəzləşdirmə əsasında həyata keçirmək, ya da eyni vaxtda aktivi reallaşdırmaq və öhdəliyi yerinə yetirmək niyyətində olduğu halda, qarşılıqlı əvəzləşdirir və maliyyə vəziyyəti haqqında hesabatda xalis məbləğ kimi təqdim edir. Əvəzləşdirmə hüququ gələcək hadisədən asılı olmamalıdır və bütün aşağıdakı hallarda qanuni hüquqa malik olmalıdır:

- Biznesin adi gedişində;
- Öhdəliklər yerinə yetirilmədikdə; və
- Müəssisə və bütün qarşı-tərəflər iflasa uğradıqda və ya müflisləşdikdə.

Adətən, bu şərtlərə qarşılıqlı əvəzləşdirmə haqqında əsas razılaşmalarda rast gəlinmir və əlaqəli aktiv və öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda ümumi şəkildə təqdim edilir.

Maliyyə aktivlərinin dəyərsizləşməsi. Maliyyə aktivinin və ya maliyyə aktivləri qrupunun dəyərsizləşməsi ehtimalına dair obyektiv sübutların olub-olmamasını müəyyən etmək üçün Bank hər hesabat tarixində qiymətləndirmə aparır. Maliyyə aktivi və ya maliyyə aktivləri qrupu yalnız və yalnız ilk dəfə əks etdirildikdən sonra baş vermiş bir və ya bir neçə hadisə nəticəsində dəyərsizləşmənin obyektiv sübutu olanda (baş vermiş "zərər hadisəsi") və ya bu zərər hadisəsi (və ya hadisələri) maliyyə aktivi və ya maliyyə aktivləri qrupundan gözlənilən və etibarlı şəkildə qiymətləndirilə bilən pul vəsaitləri hərəkətlərinə təsir göstərəndə dəyərsizləşmiş hesab edilir. Dəyərsizləşmənin sübutlarına borcalanın və ya borcalanlar qrupunun mühüm maliyyə çətinlikləri ilə rastlaşması, faizlərin və ya əsas məbləğin ödənilməsi öhdəliklərini pozması, yüksək müflisləşmə və ya digər maliyyə yenidənqurması ehtimalı ilə qarşılaşmasına dair sübutlar, habelə müşahidə edilən bazar məlumatları əsasında qiymətləndirilən gələcək pul vəsaitləri hərəkətində ölçülə bilən azalmaya (misal üçün vaxtı keçmiş ödənişlərin səviyyələrində dəyişikliklərə və ya aktivlər üzrə zərərlərlə uzlaşan iqtisadi şəraitlərə) dair sübutlar daxildir.

Kredit təşkilatlarından alınacaq məbləğlər və müştərilərə verilmiş kreditlər. Amortizasiya olunmuş dəyərlə uçota alınan kredit təşkilatlarından alınacaq məbləğlər və müştərilərə verilmiş kreditlərlə bağlı Bank əvvəlcə fərdi olaraq mühüm maliyyə aktivləri üçün fərdi və fərdi olaraq mühüm olmayan maliyyə aktivləri üçün ümumi şəkildə dəyərsizləşməyə dair obyektiv sübutların olub-olmamasını qiymətləndirir. Bank mühüm olub-olmamasından asılı olmayaraq fərdi şəkildə qiymətləndirilmiş maliyyə aktivi üçün dəyərsizləşməyə dair obyektiv sübutun olmaması qərarına gələrsə, həmin aktivi analoji kredit riski xüsusiyyətlərinə malik olan maliyyə aktivləri qrupuna daxil edir və onların dəyərsizləşmə baxımından qiymətləndirilməsini ümumi şəkildə aparır. Dəyərsizləşmə baxımından qiymətləndirilməsi fərdi şəkildə aparılmış və dəyərsizləşmə zərərləri əks etdirilmiş aktivlər dəyərsizləşmə baxımından məcmu şəkildə qiymətləndirməyə daxil edilmir.

Dəyərsizləşmə zərərlərin çəkilməsinin obyektiv sübutu olarsa, zərərin məbləği aktivlərin balans dəyəri ilə qiymətləndirilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyəri (idarəetmə riskləri matriksi əsasında hələ çəkilməmiş gələcəkdə gözlənilən kredit zərərləri nəzərə alınmadan) arasında fərq kimi ölçülür. Aktivin balans dəyəri ehtiyat hesabının istifadə edilməsi hesabına azalır və zərərin məbləği mənfəət və ya zərərdə əks etdirilir. Faiz gəlirləri azaldılmış balans dəyəri üzrə, aktivin ilkin effektiv faiz dərəcəsi əsasında hesablanmağa davam edir. Kreditlər və müvafiq ehtiyat kreditin qaytarılmasının realistik perspektivləri olmayanda və bütün təminat reallaşdırıldıqda və ya Bankın mülkiyyətinə keçdikdə silinir. Əgər növbəti ildə qiymətləndirilmiş dəyərsizləşmə zərərinin məbləği dəyərsizləşmə tanındıqdan sonra baş vermiş hadisə nəticəsində artır və ya azalırsa, əvvəl tanınmış dəyərsizləşmə zərəri ehtiyat hesabında düzəliş aparmaqla əks etdirilir. Gələcək silinmə sonradan bərpa edilirsə, bərpa məbləği konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda əks etdirilir.

Qiymətləndirilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyəri maliyyə aktivinin ilkin effektiv faiz dərəcəsi ilə diskont edilir. Kredit dəyişən faiz dərəcəsi ilə verilmişdirsə, dəyərsizləşmə zərərinin ölçülməsi üçün diskontun dərəcəsi, cari effektiv faiz dərəcəsi olacaqdır. Girov qoyulmuş maliyyə aktivləri üzrə qiymətləndirilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinin hesablanması, girov aktivinin özgəninkiləşdirilməsinin mümkün olub-olmamasından asılı olmayaraq, girovun alınması və satılması ilə bağlı məsrəfləri çıxmaqla girov aktivinin özgəninkiləşdirilməsindən irəli gələn pul vəsaitləri hərəkətlərini əks etdirir.

Dəyərsizləşmənin məcmu şəkildə qiymətləndirilməsi məqsədilə maliyyə aktivləri Bankın daxili kredit reytinqləri sistemi əsasında qruplara bölünür və bu zaman aktivin növü, iqtisadi sektoru, coğrafi mövqeyi, girovun növü, ödəniş vaxtının keçib-keçməməsi və digər müvafiq amillər kimi kredit riskinin xüsusiyyətləri nəzərə alınır.

3. Əsas Uçot Siyasətləri (davamı)

Ümumi şəkildə dəyərsizləşmə baxımından qiymətləndirilmiş maliyyə aktivləri qrupu üzrə pul vəsaitlərinin gələcək hərəkətləri bu qrupa daxil olan aktivlərin kredit riski xüsusiyyətləri ilə analoji xüsusiyyətlərə malik olan aktivlər üzrə zərərlərlə bağlı tarixi məlumat əsasında müəyyən edilir. Zərərlərlə bağlı tarixi məlumatda həmin məlumatın aid olduğu illərdə təsir göstərməmiş cari şəraitlərin təsirini əks etdirmək və keçmiş müddətin hazırda mövcud olmayan şəraitlərinin təsirini istisna etmək məqsədilə müşahidə edilən cari bazar məlumatı əsasında düzəlişlər edilir. Gələcək pul vəsaitləri hərəkətlərində dəyişikliklərin qiymətləndirmələri hər il üçün müşahidə edilən bazarda müvafiq məlumatlardakı dəyişiklikləri (misal üçün işsizlik səviyyəsi, daşınmaz əmlakın qiymətləri, əmtəə qiymətləri, ödəniş statusunda dəyişikliklər və ya qrupun çəkdiyi zərərləri və ya onların həcmini əks etdirən digər amilləri) əks etdirir. Gələcək pul vəsaitləri hərəkətinin qiymətləndirilməsi üçün istifadə edilmiş metod və fərziyyələr müntəzəm qaydada yenidən baxılır ki, qiymətləndirilmiş zərərlərlə faktiki nəticələr arasındakı fərqlər azaldılsın.

Satış üçün mövcud olan maliyyə investisiyaları. Satış üçün mövcud olan maliyyə investisiyaları üçün Bank hər hesabat tarixində investisiya və ya investisiyalar qrupunun dəyərsizləşməsinə dair obyektiv sübutun olub-olmamasını qiymətləndirir.

Satış üçün mövcud olan maliyyə investisiyaları kimi təsnif edilən kapital investisiyaları ilə bağlı obyektiv dəyərsizləşmə sübutlarına investisiyanın ədalətli dəyərinin ilkin dəyərdən əhəmiyyətli və ya sürəkli şəkildə aşağı düşməsi daxildir. Dəyərsizləşmə sübutları mövcud olanda məcmu zərər – əvvəl mənfəət və ya zərərdə əks etdirilmiş investisiya üzrə dəyərsizləşmə zərərini çıxmaqla alış dəyəri ilə cari ədalətli dəyər arasındakı fərq kimi ölçülür – sair məcmu gəlirin tərkibindən çıxarılır və konsolidasiya edilmiş mənfəət və ya zərər və məcmu gəlir haqqında hesabat üzrə yenidən təsnif edilir. Kapital investisiyaları üzrə dəyərsizləşmə zərərləri konsolidasiya edilmiş mənfəət və ya zərər və məcmu gəlir haqqında hesabat vasitəsilə bərpa edilmir, onların dəyərsizləşmədən sonra ədalətli dəyərinin artması konsolidasiya edilmiş mənfəət və zərər və ya sair məcmu gəlirin tərkibində əks etdirilir.

Borc alətləri satıla bilən alətlər kimi təsnif edilərdə dəyərsizləşmə amortizasiya hesablanmış dəyərlə uçota alınan maliyyə aktivləri ilə eyni prinsiplərlə qiymətləndirilir. Gələcək faiz gəliri azaldılmış balans dəyərinə əsaslanır və dəyərsizləşmə zərərinin ölçülməsi məqsədilə gələcək pul vəsaitləri hərəkətlərinin diskont edilməsi üçün istifadə edilən faiz dərəcəsi ilə hesablanır. Faiz gəliri mənfəət və ya zərərdə əks etdirilir. Əgər növbəti ildə borc alətinin ədalətli dəyəri artırsa və bu artma obyektiv olaraq dəyərsizləşmə zərərləri mənfəət və ya zərərdə əks etdirildikdən sonra baş vermiş hadisə ilə bağlıdırsa, dəyərsizləşmə zərəri konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda bərpa edilir.

Kreditlərin restrukturizasiyası. Mümkün olduqda, Bank girova yiyələnməkdən daha çox kredit şərtlərini dəyişdirməyə çalışır. Buna müqavilə ilə nəzərdə tutulmuş ödəniş müddətlərinin uzadılması və yeni kredit şərtlərinin razılaşdırılması daxildir. Bu restrukturizasiyanın uçot qaydası aşağıda təqdim olunur:

- Kreditin valyutası dəyişmişdirsə, köhnə kredit uçotdan çıxarılır və yeni kredit tanınır.
- Əgər kredit şərtlərinin dəyişməsi borcalanın maliyyə çətinlikləri ilə bağlı deyilsə, Bank aşağıda təsvir olunmuş maliyyə öhdəlikləri üçün tətbiq edilən eyni yanaşmadan istifadə edir.
- Əgər kredit şərtlərinin dəyişməsi borcalanın maliyyə çətinlikləri ilə bağlıdırsa və şərtlər dəyişdirildikdən sonra kredit dəyərsizləşərsə, Bank ilkin effektiv faiz dərəcəsindən istifadə etməklə diskontlaşdırılmış yeni pul vəsaitlərinin hərəkətinin cari dəyəri ilə şərtlər dəyişdirildikdən əvvəl balans dəyəri arasındakı fərqi dövr üzrə ehtiyat ayırmalarında tanıyır. Kreditin şərtləri dəyişdirildikdən sonra kredit dəyərsizləşmirsə, Bank effektiv faiz dərəcəsini yenidən hesablayır.

Yeni şərtlər müəyyən edildikdən sonra, kredit artıq vaxtı keçmiş hesab olunmur. Bütün meyarların qarşılanması və gələcək ödənişlərin mümkünlüyündən əmin olmaq məqsədilə Bankın rəhbərliyi restrukturizasiya edilmiş kreditləri daim nəzərdən keçirir. Belə kreditlər fərdi və ya ümumi qaydada dəyərsizləşmə üçün qiymətləndirilməkdə davam olunur və onların ödənilən dəyəri kredit üzrə ilkin və ya cari effektiv faiz dərəcəsi istifadə etməklə hesablanır.

3. Əsas Uçot Siyasətləri (davamı)

Maliyyə aktiv və öhdəliklərinin tanınmasının dayandırılması

Maliyyə aktivləri. Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan çıxarılır:

- aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının vaxtı başa çatmışdır;
- Bank özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya aktivdən pul vəsaitlərini almaq hüququnu saxlayaraq, üzərinə aktivdən pul vəsaitlərini "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və
- Bank: (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş; (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürməmiş və ya özündə saxlamamış, lakin onlar üzrə nəzarət hüququnu köçürmüşdür.

Bank aktivdən pul vəsaitləri hərəkətini almaq hüququnu köçürmüş və aktiv üzrə risk və səmərələrin əksəriyyətini nə köçürməmiş, nə onları özündə saxlamamış, nə də aktiv üzrə nəzarət hüququnu köçürməmişdirsə, aktiv, Bankın həmin aktivdə davam edən iştirakı müqabilində əks etdirilir. Köçürülmüş aktiv üzrə zəmanət formasında aktivdə iştirakın davam etməsi aktivin ilkin balans dəyəri ilə Bankdan tələb oluna biləcək maksimal ödəniş məbləğindən az olanı ilə ölçülür.

Aktivdə iştirak, köçürülmüş aktiv üzrə yazılı və/və ya satın alınmış opsion (o cümlədən nağd hesablaşma əsaslı opsion və ya analoji alət) formasında davam edirsə, Bankın davam edən iştirakının həddi köçürülən aktivin Bank tərəfindən geri alınacaq dəyərinə bərabərdir. Lakin ədalətli dəyərlə qiymətləndirilən aktiv üzrə yazılı "put" opsionu (o cümlədən nağd hesablaşma əsaslı opsion və ya analoji alət) istisna təşkil edir və bu halda Bankın davam edən iştirakının həddi, köçürülən aktivin ədalətli dəyəri və opsionun icra qiymətindən az olanı ilə məhdudlaşır.

Maliyyə öhdəlikləri. Maliyyə öhdəlikləri "MZHƏD maliyyə öhdəlikləri" və "digər maliyyə öhdəlikləri" olmaqla iki hissəyə ayrılır.

a) MZHƏD

Maliyyə öhdəlikləri ticarət məqsədləri ilə saxlanıldıqda və ya xüsusi olaraq MZHƏD şəklində nəzərdə tutulduqda MZHƏD maliyyə öhdəlikləri kateqoriyasına aid edilirlər.MZHƏD maliyyə öhdəlikləri ədalətli dəyərlə təqdim edilir və yenidən ölçülmə zamanı yaranan mənfəət və zərər məbləğləri müvafiq olaraq mənfəət və zərər hesablarında tanınır. Mənfəət və zərər hesabında tanınan xalis mənfəət və ya zərərə maliyyə öhdəliyi üzrə ödənilən bütün faizlər daxildir və bu məbləğ məcmu gəlir hesabatında "digər gəlirlər/(zərərlər)" bəndində öz əksini tapır.

b) Digər maliyyə öhdəlikləri

Digər maliyyə öhdəlikləri ilkin olaraq bütün əməliyyat xərcləri çıxıldıqdan sonra ədalətli dəyər ilə ölçülür. Digər maliyyə öhdəlikləri növbəti dövrlərdə effektiv faiz dərəcəsi metodundan istifadə olunmaqla amortizasiya edilmiş maya dəyərində ölçülür və faiz xərcləri effektiv gəlir kriteriyasına əsaslanaraq tanınır.

Effektiv faiz dərəcəsi metodu, maliyyə öhdəliyinin amortizasiya olunmuş maya dəyərinin hesablanılması və faiz xərci məbləğinin müvafiq dövrlər üzrə paylaşdırılmasını nəzərdə tutur. Bu metod maliyyə öhdəliyinin nəzərdə tutulan istifadə müddəti üzrə təxmin edilən gələcək ödəniləcək vəsaitləri və ya müvafiq olduqda, daha qısa müddət üzrə maliyyə öhdəliyinin qalıq dəyərini dəqiq diskontlaşdıran dərəcədir.

Maliyyə öhdəliyi müvafiq öhdəlik icra edildikdə, ləğv edildikdə və ya vaxtı başa çatdıqda uçotdan çıxarılır.

Mövcud olan bir maliyyə öhdəliyi eyni kreditor qarşısında tam fərqli şərtlərlə digəri ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtlərinə əhəmiyyətli düzəlişlər edildikdə, belə əvəz etmə və ya düzəliş ilkin öhdəliyin tanınmasının dayandırılmasını və yeni öhdəliyin tanınmasını tələb edir və müvafiq balans dəyərlərindəki fərqlər konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda əks etdirilir.

Maliyyə zəmanətləri. Adi biznes fəaliyyətində Bank akkreditivlər və zəmanətlərdən ibarət olan maliyyə zəmanətləri verir. Maliyyə zəmanətləri konsolidasiya edilmiş maliyyə hesabatlarında ilk öncə ədalətli dəyərlə "Digər öhdəliklər" maddəsində alınmış komissiya haqqı məbləğində əks etdirilir. İlkin əks etdirmədən sonra Bankın hər bir zəmanət üzrə öhdəliyi aşağıdakı məbləğlərdən yuxarı olanı ilə ölçülür: amortizasiya hesablanmış komissiya haqqı və zəmanətdən irəli gələn maliyyə öhdəliyinin ödənilməsi üçün tələb olunan məsrəflərin ən yaxşı qiyməti.

3. Əsas Uçot Siyasətləri (davamı)

Maliyyə zəmanətləri ilə bağlı öhdəliyin artması konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda nəzərə alınır. Alınmış komissiya haqqı mənfəət və ya zərər zəmanətin müddəti üzrə bərabər hissələrə bölünməklə əks etdirilir.

Vergilər. Cari mənfəət vergisi xərci Azərbaycan Respublikasının qanunları əsasında hesablanır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri öhdəlik metodundan istifadə etməklə müvəqqəti fərqlər üzrə hesablanır. Təxirə salınmış mənfəət şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı qudvilin və ya aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəlməyəndə və əməliyyat zamanı nə uçot mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə və ya zərərə təsir göstərmədiyi hallarda, təxirə salınmış mənfəət vergisi aktivlərinin və öhdəliklərinin vergi bazası və onların maliyyə hesabatları məqsədləri üçün balans dəyərləri arasında bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

Təxirə salınmış vergi aktivləri yalnız bu dərəcədə müəyyən edilir ki, çıxılan müvəqqəti fərqlərin istifadə edilə bilməsi üçün vergiyə cəlb edilən mənfəətin mövcud olması ehtimalı olsun. Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri, hesabat tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri və vergi qanunları əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.

Müvəqqəti fərqin bərpa edilməsi vaxtı nəzarət altında olduğu və müvəqqəti fərqin yaxın gələcəkdə bərpa edilməməsi ehtimal edildiyi hallar istisna olmaqla, təxirə salınmış mənfəət vergisi törəmə müəssisələrə, assosiasiya olunmuş müəssisələrə və birgə müəssisələrə investisiyalardan irəli gələn müvəqqəti fərqlər üzrə əks etdirilir.

Bundan əlavə, Azərbaycanda Bankın fəaliyyəti ilə bağlı ƏDV, əmlak vergisi, ödəmə mənbəyində tutulan vergi və sair müxtəlif əməliyyat vergiləri tətbiq edilir. Bu vergilər ümumi və inzibati xərclərin tərkibinə daxil edilir.

Əmlak və avadanlıqlar. Əmlak və avadanlıqlar gündəlik xidmət xərcləri istisna olmaqla, yığılmış amortizasiyanı və hər hansı tanınmış dəyərsizləşmə zərərini çıxmaqla ilkin dəyəri ilə tanınır. Tanınma meyarına uyğun gələndə, əmlak və avadanlıqların bir hissəsinin əvəz etdirilməsi xərcləri yaranan zaman həmin dəyərə daxil edilir.

Əmlak və avadanlığın balans dəyəri dəyərsizləşmə baxımından balans dəyərinin qaytarılmayacağını göstərən hadisələr baş verəndə və ya şəraitlər dəyişəndə yenidən qiymətləndirilir.

Aktiv istifadəyə hazır olduğu andan bu aktiv üzrə amortizasiya hesablanmağa başlayır. Amortizasiya aktivlərin balans dəyərlərini aşağıda göstərilən proqnozlaşdırılan istifadə müddətləri üzrə bərabər hissələrə bölməklə hesablanır:

	İllər
İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri	4 - 15
Mebel və digər avadanlıqlar	4 - 5
Kompüter və ofis avadanlığı	4
Nəqliyyat vasitələri	4

Aktivlərin qalıq dəyərləri, istifadə müddətləri və metodlar yenidən baxılaraq, hər maliyyə ilinin sonunda lazım olduqca yeniləşdirilir.

Təmir və rekonstruksiya xərcləri çəkildikcə xərclərə aid edilir və kapitallaşdırılmalı olduğu hallar istisna olmaqla, digər əməliyyat xərclərinə daxil edilir.

Qeyri-maddi aktivlər. Qudvildən başqa qeyri-maddi aktivlər kompüter proqramlarından və lisenziyalardan ibarətdir.

Ayrıca alınmış qeyri-maddi aktivlər ilk olaraq maya dəyəri ilə tanınır. İlkin tanınmadan sonra qeyri-maddi aktivlər yığılmış amortizasiya və yığılmış dəyərsizləşmə zərərlərini çıxmaqla maya dəyəri ilə əks etdirilir. Qeyri-maddi aktivlərin istifadə müddətləri məhdud və ya qeyri-müəyyən müddətlər kimi müəyyən edilmişdir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlərə 1-10 illik istifadə müddəti üzrə amortizasiya hesablanır və həmin qeyri-maddi aktivlər üzrə mümkün dəyərsizləşmə əlamətləri mövcud olanda dəyərsizləşmə baxımından qiymətləndirmə aparılır. Qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlərlə bağlı amortizasiya müddəti və metodları ən azından hər maliyyə ilinin sonunda yenidən baxılır.

3. Əsas Uçot Siyasətləri (davamı)

Yenidən mülkiyyətə keçmiş girov. Müəyyən hallarda girov ödənilməmiş kreditlər üzrə tutmanın yönləndirilməsindən sonra yenidən mülkiyyətə alınır. Yenidən mülkiyyətə alınmış girov ən aşağı balans dəyəri və ya xalis satış dəyərində ölçülür və hesabatlarda "Digər aktivlər" daxilində göstərilir.

Ehtiyatlar. Bank ehtiyatları keçmiş hadisənin nəticəsi olan cari (hüquqi və ya konstruktiv) öhdəliyə sahib olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərələri təcəssüm etdirən resursların xaric olmasının tələb olunacağını ehtimal etdikdə və öhdəliyin məbləğini etibarlı qiymətləndirə biləndə tanıyır.

Nizamnamə kapitalı. Adi səhmlər kapital kimi təsnif edilir. Şirkətlərin birləşməsi istisna olmaqla, yeni səhmlərin buraxılması ilə birbaşa bağlı olan xarici xərclər kapitalın tərkibində həmin emissiya nəticəsində əldə edilmiş məbləğin azalması kimi əks etdirilir.

Əldə edilmiş vəsaitlərin ədalətli dəyərinin emissiya zamanı səhmlərin nominal dəyərindən artıq məbləği əlavə kapital kimi əks etdirilir.

Seqmentlər üzrə hesabat. Bankın seqmentlər üzrə hesabatları aşağıdakı əməliyyat seqmentlərinə əsaslanır: pərakəndə bank əməliyyatları və korporativ bank əməliyyatları.

Şərti öhdəliklər. Şərti öhdəliklər konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onların ödənilməsi üçün ehtiyatların xərclənməsi ehtimalı az olanda, maliyyə hesabatlarında açıqlanır. Şərti aktivlər konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onlarla bağlı iqtisadi faydaların daxil olması ehtimal ediləndə maliyyə hesabatlarında açıqlanır.

Gəlir və xərclərin tanınması. Gəlir Bank tərəfindən iqtisadi səmərənin əldə edilməsi ehtimal ediləndə və xərclər etibarlı şəkildə ölçülə biləndə tanınır. Gəlirin tanınması üçün aşağıdakı xüsusi tanınma meyarları da qarşılanmalıdır.

Faiz və analoji gəlir və xərclər. Ticarət aktivləri və ya satıla bilən aktivlər kimi təsnif edilmiş faiz hesablanan qiymətli kağızlar və amortizasiya olunmuş dəyəri ilə qiymətləndirilən bütün maliyyə alətləri üzrə faiz gəlirləri və ya xərcləri effektiv faiz dərəcəsi ilə tanınır. Effektiv faiz dərəcəsi qiymətləndirilən gələcək pul vəsaitləri ödənişlərini və ya daxilolmalarını maliyyə alətinin ehtimal edilən istifadə müddəti və ya daha qısa müddət ərzində maliyyə aktivinin və ya öhdəliyinin xalis balans dəyərinədək diskontlaşdırır. Hesablama zamanı maliyyə aləti üzrə bütün müqavilə şərtləri (misal üçün əvvəlcədən ödəmə imkanı), eləcə də alətlə bilavasitə bağlı olan və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün haqlar və əlavə xərclər nəzərə alınır, lakin gələcək kredit zərərləri nəzərə alınmır. Bank mliyyə aktivi və ya öhdəlikləri üzrə ödəniş və daxilolmalara dair qiymətləndirmələrinə yenidən baxdıqda, həmin aktiv və öhdəliklərin balans dəyərinə düzəlişlər edir. Düzəliş edilmiş balans dəyəri ilkin effektiv faiz dərəcəsi əsasında hesablanır və balans dəyərində dəyişiklik faiz gəliri və ya xərci kimi tanınır.

Maliyyə aktivinin və ya analoji maliyyə aktivləri qrupunun qeydə alınmış dəyəri dəyərsizləşmə zərərinə görə azalarsa, faiz gəliri, yeni balans dəyərinə ilkin faktiki faiz dərəcəsini tətbiq etməklə əks etdirilir.

Haqq və komissiya gəlirləri. Bank haqq və komissiya gəlirlərini müştərilərə göstərdiyi xidmətlərdən əldə edir. Haqlardan əldə edilən gəlir aşağıdakı iki kateqoriyaya bölünə bilər:

- *Müəyyən müddətdə göstərilmiş xidmətlərdən komissiya gəliri*

  Müəyyən müddətdə göstərilmiş xidmətlərdən komissiya gəliri həmin müddət ərzində hesablanır. Bu haqlara komissiya gəliri daxildir. Kreditlərin verilməsi öhdəlikləri ilə bağlı haqlar (bu kreditlərin istifadə edilməsi ehtimalı yüksək olanda) və kreditlərlə bağlı digər haqlar (hər hansı əlavə xərclərlə birlikdə) gələcək dövrlərə aid edilir və kredit üzrə faktiki faiz dərəcəsinə düzəliş kimi tanınır.

- *Əməliyyat xidmətlərinin göstərilməsindən komissiya gəliri*

  Üçüncü tərəf adından hər hansı əməliyyat və ya danışıqlarda iştirak müvafiq əməliyyat başa çatdıqdan sonra tanınır. Müəyyən gəlirlilik göstəriciləri ilə bağlı olan haqlar və ya haqqın komponentləri müvafiq meyarlar yerinə yetirildikdən sonra tanınır.

Dividend gəlirləri. Bank ödənişi almaq hüququnu əldə edəndə gəlir tanınır.

3. Əsas Uçot Siyasətləri (davamı)

Xarici valyutanın çevrilməsi. Xarici valyutalarla aparılan əməliyyatlar ilk öncə əməliyyat tarixində qüvvədə olan valyuta məzənnəsindən istifadə etməklə funksional valyutada qeydə alınır. Xarici valyuta ilə olan monetar aktivlər və öhdəliklər hesabat tarixinə qüvvədə olan məzənnədən istifadə etməklə funksional valyutaya yenidən çevrilir. Xarici valyutalarla olan əməliyyatların çevrilməsindən yaranan bütün gəlirlər və zərərlər konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda "Zərərlər çıxılmaqla xarici valyutalarla əməliyyatlar üzrə gəlir – xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi" maddəsi üzrə tanınır. Xarici valyuta ilə olan və maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr ilkin əməliyyatların tarixlərinə mövcud olan məzənnə ilə çevrilir. Xarici valyuta ilə olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnə ilə çevrilir.

Xarici valyuta ilə aparılan əməliyyatın müqavilə üzrə valyuta məzənnəsi ilə ARMB-nin əməliyyat tarixində qüvvədə olan məzənnəsi arasında fərqlər xarici valyuta ilə dilinq əməliyyatlarından zərərləri çıxmaqla gəlirlərin tərkibində əks etdirilir. Bank hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında 31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə mövcud olan aşağıdakı rəsmi məzənnələrdən istifadə etmişdir:

	2017	2016
1 ABŞ dolları	AZN 1.7001	AZN 1.7707
1 Avro	AZN 2.0307	AZN 1.8644

4. Yeni Uçot Qaydaları

1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburi xarakter daşıyan və Qrup tərəfindən vaxtından əvvəl tətbiq edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur.

BMHS 9 "Maliyyə Alətləri" (2014-cü ilin iyul ayında dəyişiklik edilmişdir və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Yeni standartın əsas fərqləri aşağıda göstərilir:

- Maliyyə aktivləri üç qiymətləndirmə kateqoriyasına təsnifləşdirilməlidir: ilkin tanınmadan sonra amortizasiya edilmiş dəyərdə qiymətləndirilən aktivlər, ilkin tanınmadan sonra sair məcmu gəlirlərin tərkibində ədalətli dəyərdə qiymətləndirilən aktivlər və mənfəət və ya zərərin tərkibində ədalətli dəyərdə qiymətləndirilən aktivlər.
- Təsnifləşdirmə maliyyə aktivlərinin idarə edilməsi üzrə müəssisənin biznes modelindən və müqavilədə nəzərdə tutulan nağd pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olub-olmamasından asılıdır. Əgər borc aləti müvafiq vəsaitin əldə edilməsi üçün saxlanılırsa və yalnız əsas məbləğin və faizlərin ödənilməsi tələbinə də uyğun gəlirsə, amortizasiya edilmiş dəyərdə qeydə alına bilər. Yalnız əsas məbləğin və faizlərin ödənilməsi tələbinə uyğun gələn borc alətləri həm nağd pul axınlarının əldə edilməsi, həm də satış üçün nəzərdə tutulan aktivlərdən ibarət portfelin tərkibindədirsə, o zaman həmin alətlər sair məcmu gəlirlərin tərkibində ədalətli dəyərlə qiymətləndirilən aktivlər kimi təsnifləşdirilə bilər. Tərkibində nağd pul axınları olmayan və yalnız əsas məbləğin və faizlərin ödənilməsi tələbinə uyğun gələn maliyyə aktivləri mənfəət və ya zərərin tərkibində ədalətli dəyərdə qiymətləndirilməlidir (məsələn, törəmə maliyyə alətləri). Qeyri-törəmə alətlərin tərkibində olan törəmə maliyyə alətləri müvafiq maliyyə aktivlərində ayrıca göstərilmir və yalnız əsas məbləğin və faizlərin ödənilməsi tələbinin şərtlərinə uyğunluq qiymətləndirilərkən nəzərə alınır.
- Pay alətlərinə investisiyalar hər zaman ədalətli dəyərdə qiymətləndirilir. Lakin pay aləti satış üçün nəzərdə tutulmadıqda, rəhbərlik ədalətli dəyərdəki dəyişiklikləri sair məcmu gəlirlərin tərkibində göstərilməsi ilə bağlı dəyişilməz qərar qəbul edə bilər. Əgər pay aləti satış üçün nəzərdə tutulursa, ədalətli dəyərdəki dəyişikliklər mənfəət və ya zərərdə göstərilməlidir.
- Maliyyə öhdəliklərinin təsnifləşdirilməsi və qiymətləndirilməsi ilə bağlı BMS 39-un əksər tələbləri dəyişdirilmədən BMHS 9-a köçürülmüşdür. Əsas fərq ondan ibarətdir ki, müəssisə mənfəət və ya zərərdə ədalətli dəyərlə qeydə alınan maliyyə öhdəliklərinin kredit risklərindəki dəyişikliklərin effektini sair məcmu gəlirlərin tərkibində açıqlamalıdır.

4. Yeni Uçot Qaydaları (davamı)

- BMHS 9 dəyərsizləşmə üzrə zərərlərin tanınması üçün yeni model təqdim edir: gözlənilən kredit zərərləri (GKZ) modeli. Bu model maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanan "üç mərhələli" yanaşmanı nəzərdə tutur. Yeni qaydaya əsasən dəyərsizləşməmiş maliyyə aktivlərinin ilkin tanınması zamanı müəssisə 12 aylıq GKZ-yə (ticarət debitor borcları üçün isə qüvvədə olduğu bütün dövr ərzində GKZ-yə) bərabər olan zərərləri birbaşa tanımalıdır. Kredit riski əhəmiyyətli dərəcədə artarsa, dəyərsizləşmə 12 aylıq GKZ deyil, kreditin qüvvədə olduğu bütöv müddətə uyğun GKZ əsasında qiymətləndirilir. Bu modelə lizinq və debitor borcları üzrə dəyərsizləşmənin qiymətləndirilməsi üçün sadələşdirilmiş təlimatlar da daxildir.

- Hecinq uçotunu risklərin idarə edilməsi ilə daha sıx əlaqələndirmək üçün uçot ilə bağlı tələblərə dəyişikliklər edilmişdir. Hazırda standart makrohecinq hallarının uçotunu nəzərdə tutmadığına görə, o, şirkətlərə BMHS 9-da təsvir edilən hecinqin uçotu tələblərini tətbiq etmək və BMS 39-un bütün heclərə tətbiqini davam etdirmək kimi uçot siyasəti arasında seçim imkanı verir.

Qrup rəhbərliyi 31 dekabr 2017-ci il tarixinə maliyyə aktiv və öhdəliklərinin təhlilinə və həmin tarixdə mövcud olan faktlara və şəraitə əsasən yeni standartın 1 yanvar 2018-ci il tarixindən etibarən qəbul edilməsinin konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcəyini gözləyir.

Rəhbərlik maliyyə aktiv və öhdəliklərinin təsnifləşdirilməsi və qiymətləndirilməsi ilə bağlı hələ yekun qərar qəbul etməmişdir, lakin amortizasiya olunmuş dəyərdə qiymətləndirilən aktivlər üzrə əhəmiyyətli yenidən təsnifləşdirmənin aparılacağını gözləmir.

Qrup 2018-ci ilin ikinci rübünə qədər 31 dekabr 2017-ci il tarixinə maliyyə aktiv və öhdəliklərinin təhlilini və həmin tarixdə mövcud olan faktlara və şəraitə əsasən yeni standartın 1 yanvar 2018-ci il tarixindən etibarən qəbul edilməsinin maliyyə hesabatlarına mümkün təsirinin qiymətləndirilməsini yekunlaşdıracağını planlaşdırır. BMHS 9-un təsiri ilə bağlı ümumi təhlilə və hazırda mövcud olan məlumatlara əsasən, BMS 39-a əsasən kredit itkiləri üzrə ehtiyatların yaradılması metodologiyasının çəkilmiş zərər modelindən BMHS 9-a uyğun olaraq gözlənilən kredit itkisi modelinə dəyişdirilməsi maliyyə aktivlərinin azalması ilə nəticələnəcəyi gözlənilir.

Yeni standartın maliyyə öhdəliklərinə əhəmiyyətli dərəcədə təsiri gözlənilmir. Bu standart, həmçinin məlumatların açıqlanması ilə bağlı əlavə tələbləri və maliyyə hesabatlarının təqdimatında dəyişiklikləri nəzərdə tutur. Bu amillərin xüsusilə yeni standartın qəbul olunduğu ildə Bankın maliyyə alətləri haqqında açıqlamalarının xüsusiyyətini və həcmini dəyişdirəcəyi gözlənilir.

BMHS 15 "Müştərilər ilə müqavilələrdən yaranan gəlir" (28 may 2014-cü il tarixində dərc edilmişdir və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Yeni standartın təqdim etdiyi əsas prinsipə görə gəlir mal və xidmətlər müştəriyə ötürüldüyü zaman əməliyyat qiyməti ilə tanınmalıdır. Birlikdə satılan mal və xidmətlərdən yaranan gəlir hər bir mal və ya xidmət üzrə ayrıca tanınmalı, təklif edilən endirim və güzəştlər müvafiq olaraq həmin mal və xidmətlər üzrə bölüşdürülməlidir. Ödəniş hər hansı səbəbə görə dəyişərsə və bu zaman məbləğin dəyişmə riski əhəmiyyətli olmazsa, məbləğin minimal hissəsi tanınmalıdır. Müştərilər ilə müqavilələrin təmin edilməsi ilə bağlı xərclər kapitallaşdırılmalı və müqavilədən faydaların əldə edildiyi müddət ərzində amortizasiya edilməlidir.

Maliyyə alətləri və lizinqin tərkib hissəsi olan faiz və haqq gəlirləri BMHS 15-in əhatəsindən kənardır və digər müvafiq standartlar (BMHS 9 və BMHS 16) ilə tənzimlənəcəkdir. Nəticədə bu standartın qəbul edilməsi Qrupun gəlirlərinin böyük hissəsinə təsir göstərməyəcəkdir. Qrupun rəhbərliyi ilkin təhlilə əsasən yeni standartın 1 yanvar 2018-ci il tarixindən etibarən qəbul edilməsinin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edəcəyini gözləmir.

BMHS 16 "Lizinq" (13 yanvar 2016-cı il tarixində dərc edilmişdir və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Yeni standart lizinqin tanınması, qiymətləndirilməsi, təqdimatı və açıqlanması ilə bağlı prinsipləri müəyyən edir. Bütün lizinq müqavilələri icarənin başlandığı tarixdən icarəyə götürənin aktivdən istifadə hüququ, eləcə də müvafiq dövrlər ərzində icarə ödənişləri həyata keçirildiyi halda maliyyələşdirmə əldə etməsinə gətirib çıxarır. Müvafiq olaraq, BMHS 16 lizinqin BMS 17-də nəzərdə tutulduğu kimi əməliyyat və ya fəaliyyət lizinqi kimi təsnifləşdirilməsini ləğv edir və bunun əvəzində icarəyə götürənlər üçün vahid uçot metodu təqdim edir. İcarəyə götürənlər aşağıdakıları tanımalıdır: (a) icarəyə verilən aktivin dəyərinin aşağı olduğu hallar istisna olmaqla, 12 aydan artıq müddəti olan bütün icarə müqavilələrindəki aktiv və öhdəlikləri və (b) mənfəət və zərər hesabatında icarəyə verilmiş aktivlərin icarəyə verilmiş öhdəliklər üzrə faizlərdən ayrıca amortizasiyası.

4. Yeni Uçot Qaydaları (davamı)

BMHS 16 mahiyyət etibarilə icarəyə verənin BMS 17-də nəzərdə tutulan uçot tələbini qüvvədə saxlayır. Müvafiq olaraq, icarəyə verən lizinq müqavilələrini əməliyyat və ya maliyyə lizinqi kimi təsnifləşdirməkdə və onları ayrıca uçota almaqda davam edir. Hazırda Qrup yeni standartın onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

BMHŞK 22 "Xarici valyutada əməliyyatlar və qabaqcadan ödənişlər" (8 dekabr 2016-cı ildə dərc olunub və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu şərh BMS 21 "Xarici valyuta əməliyyatları" standartının tətbiqi zamanı əməliyyat tarixinin müəyyən edilməsi məsələsini aydınlaşdırır. Həmin Şərh müəssisənin xarici valyutada müqavilələr üzrə qabaqcadan ödənişlər etdiyi və ya qəbul etdiyi halda tətbiq edilir. Şərhdə qeyd olunur ki, əməliyyat tarixi ilkin ödənişin həyata keçirilməsi və ya qəbul edilməsi zamanı yaranan qeyri-monetar aktivin və ya öhdəliyin müəssisə tərəfindən ilkin tanınma tarixidir. Qabaqcadan bir neçə ödəniş və ya daxilolma həyata keçirilərsə, müəssisə qabaqcadan həyata keçirilmiş hər bir ödəniş və ya daxilolmanın tarixini müəyyən etməlidir. Hazırda Qrup bu şərhin onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

BMHŞK 23 "Mənfəət vergisinin uçotundan yaranan qeyri-müəyyənlik" (7 iyun 2017-ci ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). BMS 12 mənfəət vergisinin uçotu ilə bağlı qeyri-müəyyənliyin effektinin əks etdirilməsini deyil, cari və təxirə salınmış vergilərin uçotu qaydalarını göstərir. Bu Şərh mənfəət vergisinin uçotu zamanı qeyri-müəyyənlik yarandıqda BMS 12-yə uyğun olaraq tanınma və qiymətləndirmə tələblərinin tətbiqi qaydasını izah edir. Müəssisə vergi uçotu ilə bağlı qeyri-müəyyənliyin ayrıca yaxud bir və ya bir neçə qeyri-müəyyənlilik halı ilə birlikdə, qeyri-müəyyənliyin həllini daha yaxşı proqnozlaşdırmağa imkan verən yanaşmadan asılı olaraq nəzərdən keçirilməsini müəyyən etməlidir. Müəssisə fərz etməlidir ki, vergi orqanları yoxlama hüququ olan məbləğləri yoxlayacaq və yoxlama zamanı müvafiq məlumatlara dair tam biliyə malik olacaqlar. Müəssisə vergi orqanının qeyri-müəyyən vergi mülahizəsini qəbul etməsi ehtimalının az olması nəticəsinə gələrsə, qeyri-müəyyənliyin həll olunmasının proqnozlaşdırılması üçün müəssisənin daha uyğun hesab etdiyi üsuldan asılı olaraq, ən münasib məbləğ və ya gözlənilən dəyər istifadə olunaraq, bu qeyri-müəyyənliyin təsiri vergiyə cəlb olunan müvafiq mənfəət və zərərin, vergi bazaları, istifadə edilməmiş vergi zərərləri, istifadə edilməmiş vergi güzəştləri və ya vergi dərəcələrinin müəyyənləşdirilməsi zamanı əks etdiriləcək. Müəssisə faktlar və şəraitdəki dəyişikliyin və yaxud Şərh ilə tələb edilən mülahizələrə və təxminlərə təsir göstərən yeni məlumatların effektini uçot təxminlərində dəyişiklik kimi əks etdirəcək. Faktlar və şəraitlər yaxud mülahizələrin və ya təxminlərin yenidən qiymətləndirilməsinə səbəb ola bilən yeni məlumatlarda dəyişikliklərə dair nümunələrə aşağıdakılar daxil olmaqla, lakin bunlarla məhdudlaşmamaqla, vergi orqanları tərəfindən aparılan yoxlamalar və ya hərəkətlər, vergi orqanları tərəfindən müəyyən edilən qaydalarda dəyişikliklər və ya mənfəət vergisinin uçotu üzrə konkret məsələnin yoxlanılması və ya təkrar yoxlanılması üçün vergi orqanlarının hüquqlarının qüvvədə olma müddətinin başa çatması daxildir. Vergi orqanlarının vergi uçotu ilə bağlı hər hansı məsələyə dair ayrıca bir qərarla razılığının və ya fikir ayrılığının olmaması Şərh ilə tələb olunan mülahizələrə və təxminlərə təsir edən faktlar və şəraitdə yaxud yeni məlumatlarda dəyişiklikləri nəzərdə tutmur. Hazırda Qrup bu şərhin onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

Qəbul edildikdən sonra aşağıdakı digər yeni uçot qaydalarının Qrupun maliyyə hesabatlarına əhəmiyyətli təsiri gözlənilmir:

- İnvestor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi - BMHS 10 və BMS 28-ə dəyişikliklər (11 sentyabr 2014-cü ildə dərc olunub və BMUSŞ tərəfindən müəyyən ediləcək tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- "Müştərilər ilə müqavilələrdən yaranan gəlir", BMHS 15-ə dəyişikliklər (12 aprel 2016-cı ildə dərc olunub və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- Səhm əsasında ödənişlər, BMHS 2-yə dəyişikliklər (20 iyun 2016-cı ildə dərc olunub və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- "Sığorta müqavilələri" - BMHS 4-ə dəyişikliklər (12 sentyabr 2016-cı ildə dərc olunub və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- İnvestisiya mülkiyyətinə/mülkiyyətindən köçürmələr, BMS 40-a dəyişikliklər (8 dekabr 2016-cı ildə dərc olunub və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- 2014-2016-cı illər üzrə BMHS-lərin illik təkmilləşdirilməsi – BMHS 1 və BMS 28-ə dəyişikliklər (8 dekabr 2016-cı ildə dərc olunub və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).

4. Yeni Uçot Qaydaları (davamı)

Yuxarıda başqa cür nəzərdə tutulmadığı təqdirdə, yeni standartlar və şərhlərin Şirkətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

5. Mühüm Mühasibat Uçotu Mühakimələri və Qiymətləndirmələri

Qrupun uçot qaydalarını tətbiq edərkən, rəhbərlik qiymətləndirmələrdən əlavə konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilmiş məbləğlərə daha əhəmiyyətli təsir göstərmiş aşağıdakı mühakimələrdən istifadə etmişdir. Qiymətləndirmələrin təbiətindən asılı olaraq, real nəticələr mühüm şəkildə fərqlənə bilər. Ən mühüm qiymətləndirmələr və mühakimələr aşağıda açıqlanır:

Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat. Bank kredit və debitor borclarının dəyərsizləşməsini qiymətləndirmək üçün müntəzəm qaydada onların təhlilini aparır. Borcalan maliyyə çətinlikləri ilə qarşılaşdığı və analoji borcalanlar haqqında faktiki məlumatların mənbəyi az olduqda Bank dəyərsizləşmə zərərlərinin qiymətləndirilməsində özünün təcrübəli mühakiməsindən istifadə edir. Eynilə, Bank qrupa daxil olan borcalanların öhdəlikləri ödəmək statusunda mənfi dəyişikliklərə və ya Bankın daxilində aktivlər üzrə öhdəliklərin yerinə yetirilməməsi ilə əlaqəli olan dövlət və ya yerli iqtisadi şəraitlərin dəyişməsinə işarə edən müşahidə edilən məlumatlar əsasında gələcək pul vəsaitləri hərəkətlərində dəyişiklikləri qiymətləndirir. Rəhbərlik kreditlər və debitor borcları qrupları üzrə kredit riski xarakteristikası və obyektiv dəyərsizləşmə sübutları olan aktivlərlə bağlı zərərlərin strukturu haqqında tarixi məlumatlar əsasında qiymətləndirmələrdən istifadə edir. Bank cari şəraitləri əks etdirmək məqsədilə kreditlər və ya debitor borcları qrupu üçün müşahidə edilən məlumatlarda düzəliş aparmaq üçün özünün təcrübəli mühakiməsindən istifadə edir.

Girovun dəyərinin müəyyən edilməsi. Rəhbərlik müntəzəm qaydada girovun bazar dəyərini nəzərdən keçirir. Rəhbərlik cari vəziyyəti əks etdirmək məqsədilə təcrübəsi əsasında mühakimə edir və ya müstəqil rəydən istifadə edir. Tələb olunan məbləğ və girov tərəfdaşın kredit riskinin qiymətləndirilməsindən asılıdır.

Maliyyə alətlərinin ədalətli dəyəri və əlaqədar təsnifləşdirilməsi. Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmiş maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin ədalətli dəyərləri fəal bazardan əldə edilə bilməyəndə, onlar müxtəlif qiymətləndirmə mexanizmlərindən istifadə etməklə müəyyən edilir. Mümkün olanda, bu mexanizmlər müşahidə edilə bilən bazardan götürülür, mümkün olmayanda isə ədalətli dəyərlərin müəyyən edilməsi üçün mühakimələr istifadə olunur. Mühakimələr uzunmüddətli maliyyə aktivləri üçün likvidlik riski, kredit riski və dəyişkənlik kimi məlumatları nəzərə alır. Bu amillər haqqında fərziyyələrdə dəyişikliklər maliyyə alətlərinin hesabatda göstərilən ədalətli dəyərinə təsir göstərə bilər. Rəhbərlik maliyyə alətlərinin xüsusiyyəti və istifadəsi üzrə mühakimə tətbiq edir və onları müvafiq kateqoriyalarda təsnifləşdirir.

Əlaqəli tərəflərlə əməliyyatlar. Adi fəaliyyətində Bank əlaqəli tərəflərlə əməliyyatlar aparır. 39 saylı MUBS maliyyə alətlərinin ilk öncə ədalətli dəyərləri əsasında tanınmasını tələb edir. Müəyyən əməliyyatlar fəal bazarda aparılmadığı təqdirdə, onların bazar və ya qeyri-bazar faiz dərəcələri ilə qiymətləndirilməsini müəyyən etmək üçün mühakimələr tətbiq edilir. Mühakimə əlaqəli olmayan tərəflər arasında oxşar əməliyyatlar üçün qiymətlərin təyin edilməsi və effektiv faiz dərəcəsinin təhlili əsasında verilir.

6. Seqmentlər üzrə Məlumat

İdarəetmə məqsədləri üçün Bankın fəaliyyəti məhsul və xidmətlərə görə iki əməliyyat seqmenti üzərində qurulub:

Pərakəndə bank əməliyyatları	Əsasən fiziki şəxslərdən depozitlərin cəlb olunması, istehlak kreditlərinin, overdraftların verilməsi, kredit kart xidmətlərinin və vəsaitlərin köçürülməsi xidmətlərinin göstərilməsi.
Korporativ bank əməliyyatları	Əsasən korporativ müştərilərə və təşkilatlara ssudaların verilməsi və digər kredit xidmətlərinin göstərilməsi, depozitlərin cəlb olunması və cari hesabların açılması.

Rəhbərlik resursların bölüşdürülməsi və fəaliyyət nəticələrinin qiymətləndirilməsi haqqında qərarların qəbul edilməsi məqsədilə ayrıca olaraq təsərrüfat bölmələrinin nəticələrini izləyir. Seqmentin nəticələri, aşağıdakı cədvəldə göstərildiyi kimi, konsolidasiya edilmiş maliyyə hesabatlarında mənfəət və ya zərərdən fərqli olaraq ölçülür.

6. Seqmentlər üzrə Məlumat (davamı)

Əməliyyat seqmentləri arasında köçürmə qiymətləri üçüncü tərəflərlə əməliyyatlarla oxşar qaydada, bir-birindən asılı olmayan tərəflər arasında əməliyyatlar kimi həyata keçirilir.

2017-ci və 2016-cı illərdə hər hansı bir xarici müştəri və ya biznes tərəfdaşı ilə əməliyyatlardan Bankın cəmi gəlirinin 10%-nə və ya daha çox hissəsinə bərabər olan məbləğdə gəlir əldə edilməmişdir.

Aşağıdakı cədvəldə Bankın əməliyyat seqmentlərinə dair gəlir, xərc və mənfəət haqqında məlumat təqdim olunur.

2017	Pərakəndə bank əməliyyatları	Korporativ bank əməliyyatları	Bölüşdürül-məmiş	Cəmi
Gəlirlər				
Faiz gəliri	12,608	14,502	1,664	28,774
Haqq və komissiya gəliri	6,312	4,884	-	11,196
Qeyri-faiz gəliri	4,827	5,553	637	11,017
Cəmi gəlirlər	**23,747**	**24,939**	**2,301**	**50,987**
Faiz xərci	(3,703)	(4,290)	-	(7,993)
Haqq və komissiya xərci	(3,773)	(1,681)	(123)	(5,577)
Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə xərci	(1,495)	620	-	(875)
Qeyri-faiz xərci	(12,133)	(13,957)	(1,602)	(27,692)
Seqmentlər üzrə nəticələr	**2,643**	**5,631**	**576**	**8,850**
Mənfəət vergisi xərci	-	(1,257)	-	(1,257)
İl üzrə mənfəət/(zərər)	**2,643**	**4,374**	**527**	**7,693**
Seqmentlər üzrə digər məlumat				
Kapital xərcləri	1,497	1,722	198	3,417

6. Seqmentlər üzrə Məlumat (davamı)

2016	Pərakəndə bank əməliyyatları	Korporativ bank əməliyyatları	Bölüşdürül-məmiş	Cəmi
Gəlirlər				
Faiz gəliri	16,572	16,755	25	33,352
Haqq və komissiya gəliri	6,150	3,855	–	10,005
Qeyri-faiz gəliri	9,651	9,757	15	19,423
Cəmi gəlirlər	**32,373**	**30,367**	**40**	**62,780**
Faiz xərci	(3,110)	(9,519)	–	(12,629)
Haqq və komissiya xərci	(2,372)	(1,323)	–	(3,695)
Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə xərci	(8,015)	(12,377)	–	(20,392)
Qeyri-faiz xərci	(13,570)	(13,721)	(20)	(27,311)
Seqmentlər üzrə nəticələr	**5,306**	**(6,573)**	**20**	**(1,247)**
Mənfəət vergisi xərci	(714)	(1,269)	109	(1,874)
İl üzrə mənfəət/(zərər)	**4,592**	**(7,842)**	**129**	**(3,121)**
Seqmentlər üzrə digər məlumat				
Kapital xərcləri	2,302	2,327	3	4,633

Coğrafi məlumat

31 dekabr 2017-ci və 2016-cı il tarixlərində başa çatan illər üzrə Bankın üçüncü tərəf müştərilərdən gəlirləri Azərbaycan Respublikasında əldə edilmişdir. BMHS 8 Banka şamil olunmur, belə ki bu açıqlama onun minimum tələblərinə cavab vermir. Bu, mənfəət və zərəri daha yaxşı anlamaq üçün əlavə açıqlamadır.

7. Pul Vəsaitləri və onların Ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

	2017	2016
Kassa	29,993	19,758
ARMB-dəki cari hesablar	28,449	38,606
ARMB-dəki qısamüddətli depozitlər	52,517	–
Digər kredit təşkilatlarındakı cari hesablar	152,736	161,608
Pul vəsaitləri və onların ekvivalentləri	**263,695**	**219,972**

31 dekabr 2017-ci il tarixinə Bankın ARMB-də ödəmə müddəti 12 yanvar 2018-ci ildə başa çatan və illik faiz dərəcəsi 11.80% – 14.97% təşkil edən qısamüddətli depozitləri olmuşdur.

Digər kredit təşkilatlarındakı cari hesablar rezident və qeyri-rezident banklarda müvafiq olaraq 233 AZN (2016: 26 AZN) və 152,503 AZN (2016: 161,582 AZN) məbləğində faiz hesablanmayan müxbir hesablar üzrə qalıqlardan ibarətdir.

31 dekabr 2017-ci il tarixinə "Fitch" agentliyinin reytinqlərinə əsasən pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

7. Pul Vəsaitləri və onların Ekvivalentləri (davamı)

Vaxtı keçməmiş və dəyərsizləşməmiş	ARMB-dəki qalıqlar	Kredit təşkilatlarındakı qalıqlar	Cəmi
- ARMB	80,966	–	80,966
- reytinqi AA- dan AA+ dək	–	7,805	7,805
- reytinqi A- dan aşağı	–	144,931	144,931
Cəmi pul vəsaitləri və onların ekvivalentləri, kassa çıxılmaqla	**80,966**	**152,736**	**233,702**

31 dekabr 2016-cı il tarixinə "Fitch" agentliyinin reytinqlərinə əsasən pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

Vaxtı keçməmiş və dəyərsizləşməmiş	ARMB-dəki qalıqlar	Kredit təşkilatlarındakı qalıqlar	Cəmi
- ARMB	38,606	–	38,606
- reytinqi AA- dan AA+ dək	–	16,117	16,117
- reytinqi A- dan aşağı	–	145,491	145,491
Cəmi pul vəsaitləri və onların ekvivalentləri, kassa çıxılmaqla	**38,606**	**161,608**	**200,214**

31 dekabr 2017-ci il tarixinə kredit təşkilatlarındakı qalıqların 144,593 AZN-i və ya kredit təşkilatlarından alınacaq ümumi məbləğlərin 95%-i bir iri müştəriyə aiddir (2016: sıfır).

Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat Qeyd 26-da açıqlanır.

8. Kredit Təşkilatlarından Alınacaq Məbləğlər

Kredit təşkilatlarından alınacaq məbləğlər aşağıdakılardan ibarətdir:

	2017	2016
ARMB-də bloklaşdırılmış cari hesab	–	27,978
ARMB-dəki məcburi ehtiyatlar	2,380	2,777
Kredit təşkilatlarından alınacaq məbləğlər	**2,380**	**30,755**

31 dekabr 2017-ci il tarixinə ARMB-də bloklaşdırılmış cari hesab sıfır təşkil edir. 31 dekabr 2016-cı il tarixinə 27,978 AZN məbləğində ARMB-də bloklaşdırılmış cari hesab ARMB-dən cəlb edilmiş borc öhdəliklərinə görə bloklaşdırılmış vəsaitləri əks etdirir (Qeyd 15).

Müştərilərdən cəlb edilmiş vəsaitlərin səviyyəsindən asılı olaraq kredit təşkilatları Mərkəzi Bankda faiz qazandırmayan pul depozitini (məcburi ehtiyatlar) saxlamalıdırlar. Bankın bu depoziti geri almaq imkanı qanunvericiliklə məhdudlaşdırılır.

9. Müştərilərə Verilmiş Kreditlər

Müştərilərə verilmiş kreditlər aşağıdakılardan ibarətdir:

	2017	2016
Korporativ kreditlər	73,737	127,551
İstehlak kreditləri	52,187	58,691
Kiçik biznes kreditləri	21,774	27,228
İpoteka kreditləri	8,904	9,506
Ümumi müştərilərə verilmiş kreditlər	**156,602**	**222,976**
Çıxılsın – Dəyərsizləşmə ehtiyatı	(38,048)	(37,850)
Müştərilərə verilmiş kreditlər	**118,554**	**185,126**

9. Müştərilərə Verilmiş Kreditlər (davamı)

31 dekabr 2017-ci il tarixinə kreditlərin ümumi məbləğinin 29.3%-i (2016: 41.1%) xarici valyutalarda ifadə edilmişdir. Ötən illə müqayisədə xarici valyutalarda ifadə edilmiş kredit portfelinin payının azalması 2017-ci ildə iqtisadi böhranın davam etməsi ilə əlaqədidir.

Müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi üçün ehtiyat

Aşağıdakı cədvəldə müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi üçün ehtiyat siniflər üzrə üzləşdirilir:

	Korporativ kreditlər	Kiçik biznes kreditləri	İstehlak kreditləri	İpoteka kreditləri	Cəmi
1 yanvar 2017-ci il	**20,086**	**6,418**	**10,249**	**1,097**	**37,850**
İl üzrə xərc	(620)	1,779	(461)	177	875
Silinmiş məbləğlər	(456)	(197)	(24)	–	(677)
31 dekabr 2017-ci il	**19,010**	**8,000**	**9,764**	**1,275**	**38,048**
Fərdi şəkildə dəyərsizləşmə	18,606	7,554	1,844	1,219	29,223
Ümumi şəkildə dəyərsizləşmə	404	446	7,919	56	8,825
Cəmi dəyərsizləşmə	**19,010**	**8,000**	**9,763**	**1,275**	**38,048**
Fərdi şəkildə qiymətləndirilmiş dəyərsizləşmə ehtiyatı çıxılmazdan əvvəl fərdi şəkildə dəyərsizləşmiş kreditlərin ümumi məbləği	**42,387**	**14,417**	**15,595**	**2,465**	**74,864**

	Korporativ kreditlər	Kiçik biznes kreditləri	İstehlak kreditləri	İpoteka kreditləri	Cəmi
1 yanvar 2016-cı il	**7,707**	**1,786**	**7,569**	**428**	**17,490**
İl üzrə xərc	12,379	4,632	2,712	669	20,392
Silinmiş məbləğlər	–	–	(32)	–	(32)
31 dekabr 2016-cı il	**20,086**	**6,418**	**10,249**	**1,097**	**37,850**
Fərdi şəkildə dəyərsizləşmə	18,761	5,510	1,797	991	27,059
Ümumi şəkildə dəyərsizləşmə	1,325	908	8,452	106	10,791
Cəmi dəyərsizləşmə	**20,086**	**6,418**	**10,249**	**1,097**	**37,850**
Fərdi şəkildə qiymətləndirilmiş dəyərsizləşmə ehtiyatı çıxılmazdan əvvəl fərdi şəkildə dəyərsizləşmiş kreditlərin ümumi məbləği	**44,778**	**10,855**	**3,328**	**1,643**	**60,604**

9. Müştərilərə Verilmiş Kreditlər (davamı)

31 dekabr 2017-ci il tarixinə girov təminatı haqqında məlumat aşağıda göstərilir:

	Korporativ kreditlər	Kiçik biznes kreditləri	İstehlak kreditləri	İpoteka kreditləri	Cəmi
Təminatsız kreditlər	5,223	819	48,500	65	54,607
Girovla təmin edilmiş kreditlər:					
- Daşınmaz əmlak	59,802	19,915	1,352	8,839	89,908
- Pul depozitləri	453	–	148	–	601
- Digər aktivlər	8,259	1,040	2,187	–	11,486
Cəmi müştərilərə verilmiş kreditlər	**73,737**	**21,774**	**52,187**	**8,904**	**156,602**

31 dekabr 2016-cı il tarixinə girov təminatı haqqında məlumat aşağıda göstərilir:

	Korporativ kreditlər	Kiçik biznes kreditləri	İstehlak kreditləri	İpoteka kreditləri	Cəmi
Təminatsız kreditlər	7,748	912	52,780	267	61,707
Girovla təmin edilmiş kreditlər:					
- Daşınmaz əmlak	106,773	25,244	1,918	9,239	143,174
- Pul depozitləri	863	–	398	–	1,261
- Digər aktivlər	12,167	1,072	3,595	–	16,834
Cəmi müştərilərə verilmiş kreditlər	**127,551**	**27,228**	**58,691**	**9,506**	**222,976**

Digər aktivlər əsasən nəqliyyat vasitələri və avadanlıqlardan ibarətdir. Yuxarıda qeyd olunan məlumatda kreditin və ya qoyulmuş girovun balans dəyəri (bunlardan hansı daha aşağı olarsa) göstərilmişdir; digər məlumatlar isə təminatsız kreditlərin tərkibində açıqlanmışdır. Kreditlərin balans dəyəri girov qoyulmuş aktivlərin likvidlik səviyyəsinə görə bölüşdürülmüşdür.

Vaxtı keçmiş kreditlərin müddətlər üzrə təhlili aşağıda təqdim olunur. Vaxtı keçmiş kreditlərin əksəriyyəti dəyərsizləşmiş hesab olunmur.

Bank daxili siyasətinə uyğun olaraq kredit portfelində reytinqləri dəqiq və ardıcıl şəkildə tətbiq etməlidir. Bu, mövcud risklərin məqsədli idarə olunması, habelə kredit risklərinin həcminin bütün fəaliyyət növləri, coğrafi bölgələr və məhsullar üzrə müqayisə edilməsi imkanını təmin edəcəkdir. Reytinq sistemi biznes tərəfdaşlarının qiymətləndirilməsi üçün əsas ilkin məlumat olan bir sıra maliyyə-analitik metodlara, eləcə də işlənmiş bazar məlumatlarına əsaslanır. Bütün daxili risk kateqoriyaları Bankın reytinq siyasətinə uyğun olaraq müəyyən edilir. Verilən reytinqlər müntəzəm qaydada qiymətləndirilir və yenidən baxılır.

Yaxşı maliyyə vəziyyəti və yaxşı borcun ödənilməsi tarixi olan müştərilərə verilmiş kreditlər və digər maliyyə aktivləri standart səviyyəyə daxil edilir. Qeyri-standart kreditlər kredit müqavilələrinin şərtlərində dəyişiklik edilmiş standart reytinqdən aşağı olan, lakin fərdi şəkildə dəyərsizləşməmiş kreditlərdən ibarətdir.

9. Müştərilərə Verilmiş Kreditlər (davamı)

31 dekabr 2017-ci il tarixinə kreditlərin keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

	Korporativ kreditlər	Kiçik biznes kreditləri	İstehlak kreditləri	İpoteka kreditləri	Cəmi
Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş	**27,268**	**3,915**	**33,306**	**5,943**	**70,432**
Standart reytinqli	25,657	3,435	32,625	5,823	67,540
Qeyri-standart reytinqli	1,611	480	681	120	2,892
Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş:					
ödənişi 30 gündən az gecikdirilmiş	3,637	2,740	2,431	417	9,225
ödənişi 30-90 gün gecikdirilmiş	446	702	854	79	2,081
Cəmi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş	**4,083**	**3,442**	**3,285**	**496**	**11,306**
Fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ):					
ödənişi 30 gündən az gecikdirilmiş	12,577	711	116	–	13,404
ödənişi 30-90 gün gecikdirilmiş	6,284	2,579	74	734	9,671
ödənişi 91-180 gün gecikdirilmiş	3,186	1,471	520	234	5,411
ödənişi 181-360 gün gecikdirilmiş	33	105	927	203	1,268
ödənişi 360 gündən çox gecikdirilmiş	20,306	9,551	13,959	1,294	45,110
Cəmi fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ):	**42,386**	**14,417**	**15,596**	**2,465**	**74,864**
Dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla	(19,010)	(8,000)	(9,763)	(1,275)	(38,048)
Cəmi müştərilərə verilmiş kreditlər (xalis)	**54,727**	**13,774**	**42,424**	**7,629**	**118,554**

9. Müştərilərə Verilmiş Kreditlər (davamı)

31 dekabr 2016-cı il tarixinə kreditlərin keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

	Korporativ kreditlər	Kiçik biznes kreditləri	İstehlak kreditləri	İpoteka kreditləri	Cəmi
Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş	**72,527**	**12,216**	**39,850**	**7,454**	**132,047**
Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş:					
ödənişi 30-90 gün gecikdirilmiş	9,869	3,571	2,002	387	15,829
ödənişi 91-180 gün gecikdirilmiş	111	75	950	12	1,148
ödənişi 181-360 gün gecikdirilmiş	7	296	2,563	–	2,866
ödənişi 360 gündən çox gecikdirilmiş	259	215	9,997	11	10,482
Cəmi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş	**10,246**	**4,157**	**15,512**	**410**	**30,325**
Fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ):					
ödənişi 30 gündən az gecikdirilmiş	9,361	95	43	22	9,521
ödənişi 30-90 gün gecikdirilmiş	719	1,349	38	24	2,130
ödənişi 91-180 gün gecikdirilmiş	5,080	883	213	139	6,315
ödənişi 181-360 gün gecikdirilmiş	18,529	2,749	627	380	22,285
ödənişi 360 gündən çox gecikdirilmiş	11,089	5,779	2,407	1,078	20,353
Cəmi fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ):	**44,778**	**10,855**	**3,328**	**1,643**	**60,604**
Dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla	(20,086)	(6,418)	(10,249)	(1,097)	(37,850)
Cəmi müştərilərə verilmiş kreditlər və avanslar (xalis)	**107,465**	**20,810**	**48,442**	**8,409**	**185,126**

Dəyərsizləşmənin qiymətləndirilməsi. Kreditlərin dəyərsizləşmə baxımından qiymətləndirilməsi zamanı nəzərə alınan əsas amillər müxtəlif vaxt intervalında vaxtı keçmiş məbləğlərin qalıqlarında hərəkətləri ölçən modelin ("roll-rate") təqdim etdiyi məlumatlardır. Bank dəyərsizləşmə baxımından iki səviyyədə qiymətləndirmə aparır: fərdi şəkildə qiymətləndirilən ehtiyatlar və məcmu şəkildə qiymətləndirilən ehtiyatlar.

Fərdi şəkildə qiymətləndirilən ehtiyatlar. Bank mühüm olan hər bir kredit üzrə tələb olunan ehtiyatları fərdi şəkildə müəyyən edir. Ehtiyatların məbləği müəyyən edildiyi zaman aşağıdakı amillər nəzərə alınır: biznes tərəfdaşının biznes-planının dayanıqlılığı, onun maliyyə çətinlikləri yarandığı təqdirdə fəaliyyət nəticələrini təkmilləşdirmək qabiliyyəti, proqnozlaşdırılan mədaxillər və müflislik halında gözlənilən dividend ödənişləri, maliyyə dəstəyinin cəlb edilməsi imkanı, girovun satış dəyəri və gözlənilən pul vəsaitləri hərəkətinin müddətləri. Gözlənilməyən hadisələr daha çox diqqət tələb etdiyi hallar istisna olmaqla, dəyərsizləşmə zərərləri hər hesabat tarixində qiymətləndirilir.

Məcmu şəkildə qiymətləndirilən ehtiyatlar. Fərdi olaraq mühüm olmayan müştərilərə verilmiş kreditlərin (o cümlədən kredit kartları, ipoteka kreditləri və girovsuz istehlakçı kreditlərinin) və fərdi olaraq mühüm olan, lakin fərdi şəkildə dəyərsizləşməsinə dair obyektiv sübutlar olmayan kreditlərin dəyərsizləşməsi üçün ehtiyatlar məcmu şəkildə qiymətləndirilir. Ehtiyatlar hər hesabat tarixində qiymətləndirilir və bu zaman hər bir kredit portfeli ayrıca təhlil edilir. Məcmu şəkildə qiymətləndirmə zamanı fərdi şəkildə dəyərsizləşməyə dair obyektiv sübut olmayanda da portfelin dəyərsizləşməsi müəyyən edilir. Dəyərsizləşmə zərərləri "roll-rate" modelinin təqdim etdiyi məlumatları nəzərə almaqla müəyyən edilir. Bundan sonra dəyərsizləşmə ehtiyatı kredit rəhbərliyi tərəfindən Bankın ümumi siyasətinə uyğunluq baxımından yoxlanılır.

Maliyyə zəmanətləri və akkreditivləri kreditlərlə eyni qaydada qiymətləndirilir və ehtiyat ayrılır.

9. Müştərilərə Verilmiş Kreditlər (davamı)

Bank BMS 39 "Maliyyə Alətləri: Tanınması və Qiymətləndirilməsi" standartında nəzərdə tutulan portfel üzrə ehtiyatın yaradılması metodologiyasını tətbiq etmiş və baş vermiş, lakin hesabat dövrünün sonuna heç bir fərdi kredit üzrə spesifik olaraq müəyyən edilməmiş dəyərsizləşmə zərərləri üçün ehtiyat yaratmışdır. Bankın siyasəti kreditin dəyərsizləşməsinə dair spesifik olaraq obyektiv dəlil müəyyən edilməyənə qədər hər bir krediti "vaxtı keçməmiş və dəyərsizləşməmiş" kateqoriyasına təsnifləşdirməkdir. Bu siyasət və portfelin dəyərsizləşməsi metodologiyasının tətbiqi ilə əlaqədar olaraq dəyərsizləşmə üzrə ehtiyat fərdi şəkildə dəyərsizləşmiş kreditlərin ümumi məbləğindən artıq ola bilər.

Kreditin dəyərsizləşməsini müəyyən edərkən Bankın nəzərə aldığı əsas amillər onun vaxtının keçməsi statusu və müvafiq girov təminatının (əgər varsa) dəyərini realizasiya etmək imkanıdır. Bunun əsasında yuxarıdakı cədvəldə fərdi şəkildə dəyərsizləşmiş kreditlərin ödəmə müddətləri üzrə təhlili göstərilir.

Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlərə əsasən təminatlı kreditlər daxildir. Təminatın ədalətli dəyəri gecikdirilmiş faiz ödənişləri və əsas məbləğin ödənilməsinə kifayət edir. Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kimi göstərilən məbləğlər kreditin yalnız ayrı-ayrı ödənişlərinin vaxtı keçmiş məbləğini deyil, bu cür kreditlərin bütöv qalığını əks etdirir.

Təminatın maliyyə təsiri təminatın dəyərini aşağıdakı aktivlər üçün ayrıca olaraq açıqlamaqla göstərilir: (i) girov təminatı və kreditin keyfiyyətini yaxşılaşdıran digər tədbirləri aktivin balans dəyərinə bərabər və ya ondan artıq olan aktivlər ("dəyərindən artıq təmin edilmiş aktivlər") və (ii) girov təminatı və kreditin keyfiyyətini yaxşılaşdıran digər tədbirləri aktivin balans dəyərindən az olan aktivlər ("kifayət qədər təmin edilməmiş aktivlər").

31 dekabr 2017-ci il tarixinə təminatın effekti aşağıda göstərilir:

	Dəyərindən artıq təmin edilmiş aktivlər		Kifayət qədər təmin edilməmiş aktivlər	
	Aktivlərin balans dəyəri	Təminatın ədalətli dəyəri	Aktivlərin balans dəyəri	Təminatın ədalətli dəyəri
Korporativ kreditlər	43,714	115,527	30,023	17,790
Kiçik biznes kreditləri	11,870	29,521	9,904	5,700
İstehlak kreditləri	2,252	8,850	49,935	753
İpoteka kreditləri	7,801	16,815	1,103	801

31 dekabr 2016-cı il tarixinə təminatın effekti aşağıda göstərilir:

	Dəyərindən artıq təmin edilmiş aktivlər		Kifayət qədər təmin edilməmiş aktivlər	
	Aktivlərin balans dəyəri	Təminatın ədalətli dəyəri	Aktivlərin balans dəyəri	Təminatın ədalətli dəyəri
Korporativ kreditlər	81,670	177,200	45,881	28,580
Kiçik biznes kreditləri	15,801	37,786	11,427	6,786
İstehlak kreditləri	3,775	18,454	54,916	1,475
İpoteka kreditləri	8,552	18,871	954	489

Fərdi şəkildə dəyərsizləşmiş kreditlər

31 dekabr 2017-ci il tarixinə 74,864 AZN (2016: 60,604 AZN) məbləğində kreditlər fərdi qaydada qiymətləndirilmişdir. Belə kreditlər üçün 29,223 AZN (2016: 27,059 AZN) məbləğində fərdi şəkildə dəyərsizləşmə üçün ehtiyat tanınmışdır. 31 dekabr 2017-ci il tarixində başa çatan il üzrə fərdi şəkildə dəyərsizləşmə ehtiyatı ayrılmış kreditlər üzrə hesablanmış faiz gəliri 8,825 AZN (2016: 10,791 AZN) təşkil edir.

ARMB-nin qaydalarına uyğun olaraq kreditlər yalnız İdarə Heyətinin qərarı ilə və ya, xüsusi hallarda, məhkəmə qərarı ilə silinə bilər.

Girov və kreditin keyfiyyətini artıran digər amillər

Tələb olunan girovun məbləği və növü biznes tərəfdaşının kredit riskinin qiymətləndirilməsindən asılıdır. Girov növlərinin münasibliyi və qiymətləndirmə parametrlərinə dair qaydalar tətbiq edilmişdir.

9. Müştərilərə Verilmiş Kreditlər (davamı)

Alınmış girovların əsas növləri aşağıdakılardır:

- korporativ kreditlər üçün daşınmaz əmlak və ticarət debitor borcları üzrə haqlar, üçüncü tərəf zaminliyi;
- istehlak kreditləri üçün pul vəsaitləri, kreditə götürülən istehlak əşyaları üzrə haqlar və yaşayış mülkləri üzrə girovlar;
- avtokreditlər üçün pul vəsaitləri və nəqliyyat vasitələrinin girovları.

Rəhbərlik girovun bazar dəyərinə nəzarət edir, müvafiq razılaşmaya uyğun olaraq əlavə girov tələb edir və kreditin dəyərsizləşməsi üçün ehtiyatın münasibliyini nəzərdən keçirdiyi zaman əldə etdiyi girovun bazar dəyərinə nəzarət edir.

Müştərilərə verilmiş kreditlərin konsentrasiyası

31 dekabr 2017-ci il tarixinə Bankın on ən iri borcalanına (2016: 10) verilmiş kreditlərin cəmi 36,090 AZN olmuşdur ki, bu da ümumi kredit portfelinin 23%-ni təşkil edir (2016: 63,328 AZN və ya 28%).

Kreditlər aşağıdakı növ müştərilərə verilmişdir: (məbləğlər ehtiyatdan əvvəl təqdim edilir):

	2017	2016
Özəl müəssisələr	73,737	127,551
Fiziki şəxslər	82,865	95,425
Ümumi müştərilərə verilmiş kreditlər	**156,602**	**222,976**

Kreditlər Azərbaycanda aşağıdakı sənaye sektorları üzrə təmin edilmişdir (məbləğlər ehtiyatdan əvvəl təqdim edilir):

	2017	2016
Fiziki şəxslər	82,865	95,425
Ticarət müəssisələri	38,471	52,960
Daşınmaz əmlakın tikintisi	11,380	25,521
İstehsal	23,886	49,070
Cəmi müştərilərə verilmiş kreditlər	**156,602**	**222,976**

Müştərilərə verilmiş kreditlərin hər bir kateqoriyasının təxmin edilən ədalətli dəyəri haqqında məlumat üçün 24-cü Qeydə baxın. Müştərilərə verilmiş kreditlərin ödəmə müddəti və coğrafi təhlili 23-cü Qeyddə göstərilir. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat Qeyd 26-da açıqlanır.

10. ARMB tərəfindən Buraxılmış Notlar və digər Təşkilatların İstiqrazları

	2017	2016
ARMB tərəfindən buraxılmış notlar	32,618	–
Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən buraxılmış istiqrazlar	–	2,587
Birjada qiyməti müəyyən edilməyən korporativ səhmlər (Bakı Fond Birjasında 4.76%-lik mülkiyyət payı)	60	60
Cəmi notlar	**32,678**	**2,647**

Borc qiymətli kağızların nominal faiz dərəcələri və ödəmə müddətləri aşağıda təqdim olunur:

	2017		2016	
	İllik faiz dərəcəsi	Ödəmə müddəti	İllik faiz dərəcəsi	Ödəmə müddəti
ARMB tərəfindən buraxılmış notlar	10.01%-14.98%	yanvar 2018	–	–

ARMB tərəfindən buraxılmış notların tədavül müddəti 28 gündür və Qrupun siyasətinə uyğun olaraq pul vəsaitləri və onların ekvivalentlərindən ibarətdir. ARMB tərəfindən buraxılmış notların vaxtı keçməmiş və ya dəyərsizləşməmişdir.

10. ARMB tərəfindən Buraxılmış Notlar və digər Təşkilatların İstiqrazları (davamı)

ARMB tərəfindən buraxılmış notların və digər təşkilatların istiqrazlarının hər bir kateqoriyasının təxmin edilən ədalətli dəyəri haqqında məlumat üçün 24-cü Qeydə baxın.

11. Əmlak və Avadanlıqlar

Əmlak və avadanlıqlar üzrə hərəkət aşağıdakı kimi olmuşdur:

	İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri	Kompüter və ofis avadanlığı	Mebel və digər avadanlıqlar	Nəqliyyat vasitələri	Cəmi
İlkin dəyər					
31 dekabr 2016-cı il	**10,665**	**9,718**	**3,169**	**125**	**23,677**
Əlavələr	45	1,422	75	2	1,544
Silinmələr	(1,952)	(276)	(85)	–	(2,313)
Köçürmələr	(36)	1,247	(1,211)	–	–
31 dekabr 2017-ci il	**8,722**	**12,111**	**1,948**	**127**	**22,908**
Yığılmış amortizasiya					
31 dekabr 2016-cı il	**(5,955)**	**(7,761)**	**(2,594)**	**(107)**	**(16,417)**
Amortizasiya xərci	(1,235)	(1,581)	(150)	(6)	(2,972)
Silinmələr	1,360	271	60	–	1,691
Köçürmələr	–	(964)	964	–	–
31 dekabr 2017-ci il	**(5,830)**	**(10,035)**	**(1,720)**	**(113)**	**(17,698)**
Xalis balans dəyəri					
31 dekabr 2016-cı il	**4,710**	**1,957**	**575**	**18**	**7,260**
31 dekabr 2017-ci il	**2,892**	**2,076**	**228**	**14**	**5,210**

	İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri	Kompüter və ofis avadanlığı	Mebel və digər avadanlıqlar	Nəqliyyat vasitələri	Cəmi
İlkin dəyər					
31 dekabr 2015-ci il	**11,449**	**9,257**	**3,048**	**104**	**23,858**
Əlavələr	50	573	192	21	836
Silinmələr	(811)	(112)	(94)	–	(1,017)
Köçürmələr	(23)	–	23	–	–
31 dekabr 2016-cı il	**10,665**	**9,718**	**3,169**	**125**	**23,677**
Yığılmış amortizasiya					
31 dekabr 2015-ci il	**(4,893)**	**(6,381)**	**(2,281)**	**(92)**	**(13,647)**
Amortizasiya xərci	(1,305)	(1,419)	(383)	(15)	(3,122)
Silinmələr	243	39	70	–	352
31 dekabr 2016-cı il	**(5,955)**	**(7,761)**	**(2,594)**	**(107)**	**(16,417)**
Xalis balans dəyəri					
31 dekabr 2015-ci il	**6,556**	**2,876**	**767**	**12**	**10,211**
31 dekabr 2016-cı il	**4,710**	**1,957**	**575**	**18**	**7,260**

31 dekabr 2017-ci il tarixinə tam amortizasiya olunmuş əmlak və avadanlıqların ümumi balans dəyəri 8,725 AZN (2016: 6,742 AZN) təşkil etmişdir.

12. Qeyri-Maddi Aktivlər

Qeyri-maddi aktivlər üzrə hərəkət aşağıdakı kimi olmuşdur:

	Lisenziyalar	Kompüter proqramları	Cəmi
İlkin dəyər			
31 dekabr 2016-cı il	**7,493**	**8,048**	**15,541**
Əlavələr	992	881	1,873
31 dekabr 2017-ci il	**8,485**	**8,929**	**17,414**
Yığılmış amortizasiya			
31 dekabr 2016-cı il	**(5,767)**	**(1,841)**	**(7,608)**
Amortizasiya xərci	(1,166)	(688)	(1,854)
31 dekabr 2017-ci il	**(6,933)**	**(2,529)**	**(9,462)**
Xalis balans dəyəri			
31 dekabr 2016-cı il	**1,726**	**6,207**	**7,933**
31 dekabr 2017-ci il	**1,552**	**6,400**	**7,952**

	Lisenziyalar	Kompüter proqramları	Cəmi
İlkin dəyər			
31 dekabr 2015-ci il	**6,197**	**5,666**	**11,863**
Əlavələr	1,398	2,399	3,797
Silinmələr	(102)	(17)	(119)
31 dekabr 2016-cı il	**7,493**	**8,048**	**15,541**
Yığılmış amortizasiya			
31 dekabr 2015-ci il	**(4,755)**	**(1,291)**	**(6,046)**
Amortizasiya xərci	(1,088)	(567)	(1,655)
Silinmələr	76	17	93
31 dekabr 2016-cı il	**(5,767)**	**(1,841)**	**(7,608)**
Xalis balans dəyəri			
31 dekabr 2015-ci il	**1,442**	**4,375**	**5,817**
31 dekabr 2016-cı il	**1,726**	**6,207**	**7,933**

31 dekabr 2017-ci il tarixinə tamamilə amortizasiya olunmuş qeyri-maddi aktivlərin ümumi balans dəyəri 6,191 AZN (2016: 4,836 AZN) təşkil etmişdir.

13. Vergilər

Korporativ mənfəət vergisi xərci aşağıdakılardan ibarətdir:

	2017	2016
Cari vergi xərci	(1,964)	-
Əvvəlki ilin vergi xərci üzrə dəqiqləşmə	-	13
İl üzrə təxirə salınmış mənfəət vergisi krediti/(xərci)	707	(1,887)
Mənfəət vergisi xərci	**(1,257)**	**(1,874)**

2017-ci və 2016-cı illər ərzində şirkətlərə (o cümlədən banklara) tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% təşkil etmişdir. Lakin 2016-cı ildə vergi uçotu üzrə zərər olduğuna görə cari il üzrə vergi hesablanmamışdır.

13. Vergilər (davamı)

Effektiv mənfəət vergisi dərəcəsi qanunvericiliklə nəzərdə tutulmuş mənfəət vergisi dərəcəsindən fərqlənir. Aşağıdakı cədvəldə qanunvericiliklə nəzərdə tutulmuş mənfəət vergisi xərci faktiki xərclərlə üzləşdirilir:

	2017	2016
Mənfəət vergisi xərcindən əvvəlki mənfəət/(zərər)	**8,850**	**(1,247)**
Qanunvericiliklə müəyyən edilmiş mənfəət vergisi dərəcəsi	20%	20%
Qanunvericiliklə müəyyən edilmiş dərəcə ilə hesablanmalı olan mənfəət vergisi xərci	(1,770)	-
Vergi məqsədləri üçün çıxılmayan xərclərin vergi effekti		
Keçmiş ilin tanınmamış zərərinin cari ildə istifadə olunması	1,427	-
Gəlirdən çıxılmayan xərclərin təsiri	(914)	-
Əvvəlki ilin vergi xərclərinin təsiri	-	13
Müvəqqəti fərqin təsiri	-	(1,887)
Mənfəət vergisi xərci	**(1,257)**	**(1,874)**

31 dekabr tarixinə təxirə salınmış vergi aktiv və öhdəlikləri və onların müvafiq illərdə hərəkəti aşağıdakı kimi olmuşdur:

	2015	Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda tanınmış	2016	Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda tanınmış	2017
Müvəqqəti fərqlərin vergi effekti					
Kredit təşkilatlarından alınacaq məbləğlər	(235)	(56)	(291)	-	(291)
Müştərilərə verilmiş kreditlər	(1,610)	(1,608)	(3,218)	390	(2,828)
Əmlak və avadanlıqlar	(11)	157	146	139	285
Qeyri-maddi aktivlər	(11)	(48)	(59)	-	(59)
Digər öhdəliklər	662	(125)	537	73	610
Digər aktivlər	15	(207)	(192)	105	(87)
Təxirə salınmış vergi öhdəliyi	**(1,190)**	**(1,887)**	**(3,077)**	**707**	**(2,370)**

14. Digər Aktiv və Öhdəliklər

Digər aktivlər aşağıdakılardan ibarətdir:

	2017	2016
Ödənilməkdə olan məbləğlər	3,163	1,550
Digər maliyyə aktivləri	**3,163**	**1,550**
Yenidən mülkiyyətə keçmiş girov	2,617	2,178
Avans ödənişləri	2,204	2,159
Digər	9	475
Digər qeyri-maliyyə aktivləri	**4,830**	**4,812**
Digər aktivlər	**7,993**	**6,362**

31 dekabr 2017-ci il tarixinə 2,204 AZN (2016: 2,159 AZN) məbləğində avans ödənişləri əsasən əmlak və avadanlıqların alınması, reklam, sığorta və icarə xidmətləri üçün ödənişlərdən ibarət olmuşdur.

14. Digər Aktiv və Öhdəliklər (davamı)

Digər öhdəliklər aşağıdakılardan ibarət olmuşdur:

	2017	2016
Plastik kartlar üzrə hesablaşmalar	2,252	741
Digər	448	674
Digər maliyyə öhdəlikləri	**2,700**	**1,415**
İşçilər üzrə hesablanmış xərclər	1,596	1,353
Təxirə salınmış gəlirlər	557	631
Sosial fondlara ödənişlər	401	124
Ehtiyatlar	243	143
Digər	434	1,693
Digər qeyri-maliyyə öhdəlikləri	**3,231**	**3,944**
Digər öhdəliklər	**5,931**	**5,359**

İşçilər üzrə hesablanmış xərclərə Bankın maliyyə nəticələrinə əsasən işçilərə verilmiş 865 AZN (2016: 563 AZN) məbləğində mükafatlar, eləcə də istifadə edilməmiş məzuniyyət günlərinə görə hesablanmış 731 AZN (2016: 790 AZN) məbləğində müavinətlər daxildir.

31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə təxirə salınmış gəlirlər əsasən plastik kartların, zəmanət və akkreditivlərin buraxılması üçün alınmış haqlardan ibarətdir.

31 dekabr 2017-ci il tarixinə digər maliyyə aktivlərinin kredit keyfiyyətinə görə təhlili aşağıda göstərilir:

	Pul köçürmələri üzrə hesablaşmalar
Vaxtı keçməmiş və dəyərsizləşməmiş	
Digər maliyyə aktivləri	
Standart reytinq	3,163
Cəmi digər maliyyə aktivləri	**3,361**

15. ARMB Qarşısında Öhdəliklər

31 dekabr 2017-ci il tarixinə Bank ARMB-dən kredit cəlb etməmişdir. 31 dekabr 2016-cı il tarixinə Bankın ARMB-dən cəlb etdiyi və ödəmə müddəti 9 iyun 2017-ci il tarixində başa çatan 20,000 AZN məbləğində kreditləri olmuşdur. Bank bu kreditlər müqabilində 15,800 ABŞ dolları (27,978 AZN) məbləğində vəsaitini girov qoymuşdur.

16. Kredit Təşkilatları Qarşısında Öhdəliklər

Kredit təşkilatları qarşısında öhdəliklər aşağıdakılardan ibarətdir:

	2017	2016
Azərbaycan İpoteka Fondu qarşısında öhdəliklər	3,803	2,271
Tələbli depozitlər	514	13,505
Banklardan götürülmüş kreditlər	–	36,144
Müddətli depozitlər	–	46
Kredit təşkilatları qarşısında öhdəliklər	**4,317**	**51,966**

31 dekabr 2017-ci il tarixinə Bank Azərbaycan İpoteka Fondundan 2047-ci ilə qədər illik 1%-4% dərəcəsi ilə 3,803 AZN məbləğində kredit vəsaitləri cəlb etmişdir (2016: 2045-ci ilə qədər illik 1%-4% dərəcəsi ilə 2,271 AZN).

17. Müştərilər Qarşısında Öhdəliklər

Müştərilər qarşısında öhdəliklər aşağıdakılardan ibarətdir:

	2017	2016
Cari hesablar	247,276	143,452
Müddətli depozitlər	95,861	171,342
Müştərilər qarşısında öhdəliklər	**343,137**	**314,794**

31 dekabr 2017-ci il tarixinə müştərilər qarşısında cəmi öhdəliklərin 133,823 AZN-i və ya 39%-i (2016: 135,361 AZN və ya 43%) on ən iri müştəriyə (2016: on) aid olmuşdur.

31 dekabr 2017-ci il tarixinə fiziki şəxslərin ödənilməmiş müddətli depozitləri üzrə orta illik faiz dərəcəsi 5.38% (2016: 4.15%), hüquqi şəxslərin ödənilməmiş müddətli depozitləri üzrə orta illik faiz dərəcəsi isə 4.80% (2016: 4.75%) təşkil etmişdir.

Müştərilər qarşısında öhdəliklərə aşağıdakılar daxildir:

	2017	2016
Özəl müəssisələr	226,283	207,359
Fiziki şəxslər	116,825	107,415
Dövlət təşkilatları	29	20
Müştərilər qarşısında öhdəliklər	**343,137**	**314,794**

Müştəri hesablarının iqtisadi sektorlar üzrə təhlili aşağıdakı kimi olmuşdur:

	2017	2016
Ticarət	182,742	166,981
Fiziki şəxslər	116,825	108,260
Daşınmaz əmlakın tikintisi	17,958	6,675
Sığorta və digər maliyyə təşkilatları	14,705	24,951
Nəqliyyat və rabitə	9,140	7,686
Dövlət və ictimai təşkilatlar	1,767	241
Müştərilər qarşısında öhdəliklər	**343,137**	**314,794**

Müştəri hesablarının hər bir kateqoriyasının ədalətli dəyəri haqqında məlumat üçün 24-cü Qeydə baxın. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat Qeyd 26-da açıqlanır.

18. Nizamnamə Kapitalı

31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə adi səhmlərin sayı 2,769,035,194 (2016: 2,340,535,194) olmuşdur. Azərbaycan manatı ilə ifadə olunmuş hər bir adi səhmin nominal dəyəri 0.02 AZN-dir. Bu səhmlər bərabər hüquqludur və hər bir səhm üzrə səhmdara bir səs hüququ verilir.

Səhmdarlar Bankın nizamnamə kapitalına qoyuluşlarını Azərbaycan manatı ilə həyata keçirmiş və dividend və hər hansı kapital ödənişlərini Azərbaycan manatı ilə almaq hüququna malikdirlər.

31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə Bankın nizamnanmə kapitalı aşağıdakı kimi olmuşdur:

	Dövriyyədə olan adi səhmlərin sayı	Cəmi ödənilmiş və qeydiyyatdan keçmiş adi səhmlərin nominal dəyəri
31 dekabr 2015	**2,340,535,194**	**46,811**
Emissiya edilmiş yeni səhmlər	–	–
31 dekabr 2016	**2,340,535,194**	**46,811**
Emissiya edilmiş yeni səhmlər	428,500,000	**8,570**
31 dekabr 2017	**2,769,035,194**	**55,381**

18. Nizamnamə Kapitalı (davamı)

Bankın səhmdarlarının 18 aprel 2018-ci il tarixli qərarına əsasən nizamnamə kapitalı 5,000 ABŞ dollarına (8,501 AZN) qədər artırılmışdır.

30 may 2017-ci il tarixində Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi Bankın nizamnamə kapitalının 55,381 AZN-dək artırılması üçün hər birinin nominal dəyəri 0.02 AZN olan 428,500,000 ədəd əlavə səhmin emissiyasını qeydə almış və 18 sentyabr 2017-ci il tarixində bu emissiyanı təsdiqləmişdir. Əlavə səhmlər 5 aprel 2017-ci il tarixində tam ödənilmişdir.

19. Təəhhüdlər və Şərti Öhdəliklər

Hüquqi məsələlər. Adi fəaliyyət gedişində Qrup məhkəmə iddiaları və şikayətləri ilə üzləşir. Rəhbərlik hesab edir ki, belə iddia və ya şikayətlərdən irəli gələn mümkün öhdəlik (əgər olarsa) Qrupun maliyyə vəziyyəti və ya gələcək əməliyyat nəticələrinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərməyəcəkdir.

Şərti vergi öhdəlikləri. Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez edilən dəyişikliklərə məruzdur. Bundan əlavə, Bankın əməliyyatları və fəaliyyətinə tətbiq edilən vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərh edilməsi rəhbərliyin şərhi ilə üst-üstə düşməyə bilər. Azərbaycan Respublikasında son zamanlar baş vermiş hadisələr göstərir ki, vergi orqanları qanunvericiliyin şərh edilməsi və vergi hesablamalarının yoxlanılmasında daha sərt mövqe tuta bilərlər, buna görə də vergi orqanları Bankın əməliyyat və fəaliyyət növləri ilə bağlı əvvəl irəli sürmədikləri iddiaları irəli sürə bilərlər. Nəticə etibarı ilə müvafiq orqanlar tərəfindən əlavə iri vergi, cərimə və faiz hesablana bilər. Vergi yoxlamaları yoxlama aparmaq qərarı qəbul edildiyi ildən əvvəlki üç maliyyə ili üzrə aparıla bilər.

Rəhbərlik hesab edir ki, 31 dekabr 2017-ci il tarixinə müvafiq qanunvericiliyin rəhbərlik tərəfindən şərhi münasibdir və Bankın vergi və sosial mövqeləri dəyişilməyəcəkdir.

Sığorta. Bank hal-hazırda səhvlər və ya buraxılmalardan irəli gələn öhdəliklərlə bağlı sığorta örtüyü əldə etməmişdir. Məsuliyyət sığortası hal-hazırda Azərbaycanda ümumiyyətlə mövcud deyil.

Maliyyə Bazarlarına Nəzarət Palatasının ("Palata") normativlərinə riayət edilməsi. Palata banklardan yerli standartlara uyğun olan maliyyə hesabatları əsasında hesablanmış müəyyən əmsallara riayət etməyi tələb edir. 31 dekabr 2017-ci il tarixinə Bank aşağıdakı iki əmsal istisna olmaqla, bu əmsallara riayət etmişdir:

a) Kredit tələbləri üzrə təminatın bazar dəyəri təmin etdiyi öhdəlik məbləğinin 100 faizindən, təminat daşınmaz əmlak olduqda 150%-dən az olduğu halda bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə kredit risklərinin maksimum həddi bankın 1-ci dərəcəli kapitalının 7 faizindən artıq olmamalıdır, və

b) Kredit tələbləri üzrə təminatın bazar dəyəri təmin etdiyi öhdəlik məbləğinin 100 faizindən, təminat daşınmaz əmlak olduqda 150%-dən az olmadığı halda bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə kredit risklərinin maksimum həddi bankın 1-ci dərəcəli kapitalının 20 faizindən artıq olmamalıdır.

31 dekabr 2017-ci il tarixinə Bankın əmsalları müvafiq olaraq 16.08% və 18.72% (31 dekabr 2016: 29.9% və 24.39%) olmuşdur.

Yuxarıda qeyd edilən normativlərə uyğunsuzluq hökumət tərəfindən maliyyələşdirilməyən xüsusi layihə ilə əlaqədardır. İl ərzində Bank bu uyğunsuzluqla bağlı hər ay Palataya məlumat təqdim etmişdir. 31 mart 2018-ci il tarixinə qeyd olunan uyğunsuzluqlar aradan qaldırılmışdır. Rəhbərlik hesab edir ki, Banka qarşı gələcəkdə heç bir sanksiya tətbiq edilməyəcəkdir.

Bank tərəfindən müştərilərə zəmanətlərin və akkreditivlərin verilməsinin əsas məqsədi müştərilərə tələb olduqda vəsaitlərin mövcudluğunu təmin etməkdir. Zəmanətlər və ehtiyat akkreditivləri müştəri üçüncü tərəflər qarşısında öhdəliklərini yerinə yetirə bilmədiyi təqdirdə Bankın ödəmələr edəcəyini qəti təsdiq edən sənədlərdir. Sənədli akkreditivlər və kommersiya akkreditivləri, Banka müəyyən edilmiş məbləğə qədər və xüsusi şərtlərlə tələb təqdim etmək hüququnu üçüncü tərəfə verən, Bankın müştəri adından üzərinə götürdüyü yazılı öhdəlik olaraq, aid olduqları malların çatdırılması və ya pul depozitləri ilə təmin edilir və beləliklə də birbaşa borcla müqayisədə daha aşağı riskə məruz qoyur.

19. Təəhhüdlər və Şərti Öhdəliklər (davamı)

31 dekabr tarixinə Bankın təəhhüdləri və şərti öhdəlikləri aşağıdakılardan ibarətdir:

	2017	2016
Kreditlərlə bağlı öhdəliklər		
İstifadə edilməmiş kredit öhdəlikləri	85,914	72,972
Açılmış zəmanətlər	24,928	35,162
Akkreditivlər	8,632	2,492
Cəmi	**119,474**	**110,626**
Əməliyyat lizinqi ilə bağlı öhdəliklər		
1 ilədək	1,842	2,722
1 ildən 5 ilədək	3,816	8,226
5 ildən artıq	2,924	2,350
Cəmi	**8,582**	**13,298**
Təəhhüdlər və şərti öhdəliklər (girov çıxıldıqdan əvvəl)	**128,056**	**123,924**
Çıxılsın – zəmanətlər üzrə girov kimi saxlanılan pul vəsaitləri	(523)	(565)
Təəhhüdlər və şərti öhdəliklər	**127,533**	**123,359**

31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə mövcud olan zəmanət məktublarının əksəriyyəti müştərilərə mal və xidmətlərin təchiz edilməsi üçün verilmiş zəmanətlər və müxtəlif təşkilatlarla elan edilmiş tenderlərdə iştirak etmək niyyəti ilə girov kimi müştərilərə verilmiş tender zəmanətlərindən ibarətdir.

20. Xalis Haqq və Komissiya Gəlirləri

Xalis haqq və komissiya gəlirləri aşağıdakılardan ibarətdir:

	2017	2016
Plastik kartlarla əməliyyatlar	4,807	4,463
Hesablaşma əməliyyatları	3,933	3,253
Pul vəsaitləri ilə əməliyyatlar	1,472	1,341
Zəmanətlər və akkreditivlər	721	719
Agent fəaliyyəti	178	104
Digər	85	125
Haqq və komissiya gəlirləri	**11,196**	**10,005**
Plastik kartlarla əməliyyatlar	(3,440)	(1,718)
Hesablaşma əməliyyatları	(1,699)	(1,644)
Agent fəaliyyəti	(127)	-
Pul vəsaitləri ilə əməliyyatlar	(9)	(19)
Zəmanətlər və akkreditivlər	(6)	(37)
Digər	(296)	(277)
Haqq və komissiya xərcləri	**(5,577)**	**(3,695)**
Xalis haqq və komissiya gəlirləri	**5,619**	**6,310**

21. İşçilər üzrə Xərclər

İşçilər üzrə xərclər aşağıdakılardan ibarətdir:

	2017	2016
Əmək haqqı və mükafatlar	(8,563)	(9,095)
Sosial sığorta xərcləri	(1,780)	(1,609)
İşçilər üzrə digər ödənişlər	(1,497)	(1,155)
İşçilər üzrə xərclər	**(11,840)**	**(11,859)**

22. Ümumi və İnzibati Xərclər

Ümumi və inzibati xərclər aşağıdakılardan ibarətdir:

	2017	2016
Binadan istifadə və icarə	(2,928)	(3,377)
Texniki dəstək xərcləri	(1,641)	(1,463)
Rabitə xərcləri	(1,022)	(983)
Hüquq və məsləhət xidmətləri	(779)	(571)
Marketinq və reklam xərcləri	(728)	(529)
Mühafizə xidməti	(722)	(871)
Təmir və texniki xidmət	(664)	(842)
Əsas vəsaitlər və qeyri-maddi aktivlərin silinməsindən zərər	(622)	(691)
Kommunal xidmətlər	(331)	(290)
Üzvlük haqları	(238)	(208)
Əyləncə xərcləri	(144)	(71)
Ofis təchizatı	(116)	(134)
Sığorta xərcləri	(96)	(63)
Mənfəət vergisi istisna olmaqla, əməliyyat vergiləri	(77)	(61)
Ezamiyyə xərcləri	(56)	(25)
Digər xərclər	(854)	(482)
Ümumi və inzibati xərclər	**(11,018)**	**(10,661)**

23. Risklərin İdarə Olunması

Öz fəaliyyətində Bank müxtəlif risklərə məruz qalır və bunları daimi müəyyən etmə, ölçmə və müşahidə etmə prosesləri, kredit limitlərinin müəyyən edilməsi və digər daxili nəzarət tədbirləri vasitəsilə idarə edir. Risklərin idarə edilməsi Bankın daim mənfəətlə işləməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bankın hər bir əməkdaşı öz vəzifələri daxilində risklərə görə məsuliyyət daşıyır. Bank kredit riski, likvidlik riski, bazar riski və əməliyyat riskinə məruz qalır.

Müstəqil riskə nəzarət prosesinə mühitdə, texnologiyada və sənayedə dəyişikliklər kimi biznes riskləri daxil deyildir. Onlar Bankın strateji planlaşdırma prosesi vasitəsilə nəzarət altında saxlanılır.

Risklərin idarə olunması strukturu. İdarə Heyəti risklərin müəyyən edilməsi və nəzarət edilməsinə görə ümumi məsuliyyət daşıyır, lakin risklərin idarə olunması və izlənməsi üçün məsuliyyət daşıyan ayrıca müstəqil orqanlar da vardır.

Direktorlar Şurası. Direktorlar şurası risklərin idarə olunmasında ümumi yanaşma, risk strategiyaları və prinsiplərinin təsdiq edilməsi üçün məsuliyyətlidir.

İdarə Heyəti. İdarə Heyəti Bankda ümumi risk prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Risk Komitəsi. Risk Komitəsi risk strategiyasının işlənib hazırlanması və risk prinsipləri, konsepsiyası, siyasəti və limitlərinin tətbiqi üçün ümumi məsuliyyət daşıyır. Komitə fundamental risk məsələləri üçün məsuliyyətlidir və risklə bağlı müvafiq qərarların yerinə yetirilməsinə nəzarət edir.

Risklərin idarə olunması bölməsi. Risklərin idarə olunması bölməsi müstəqil nəzarət prosesini təmin etmək məqsədilə risklə bağlı prosedurların tətbiqi və dəstəklənməsi üçün məsuliyyət daşıyır.

Risklərə nəzarət bölməsi. Risklərə nəzarət bölməsi bütün Bankda risk prinsipləri, qaydaları və limitlərinə uyğunluğu izləmək üçün məsuliyyət daşıyır. Hər bir təsərrüfat qrupuna risklərə müstəqil nəzarət, o cümlədən müəyyən edilmiş limitlərlə müqayisədə riskə məruz qalan pozisiyaların həcminə nəzarət, eləcə də yeni məhsulların və strukturlaşdırılmış əməliyyatların riskinin qiymətləndirilməsi üçün məsuliyyət daşıyan mərkəzsizləşdirilmiş bölmə daxildir. Bu bölmə həmçinin risklərin ölçülməsi və hesabat sistemlərində tam əks etdirilməsi üçün məlumatın toplanmasını təmin edir.

Bankın xəzinədarlığı. Bankın xəzinədarlığı Bank aktivlərinin və öhdəliklərinin idarə olunması, eləcə də ümumi maliyyə strukturu üçün məsuliyyət daşıyır. Bundan əlavə, xəzinədarlıq Bankın maliyyələşdirmə və likvidlik riskləri üzrə məsuliyyət daşıyır.

23. Risklərin İdarə Olunması (davamı)

Daxili Audit. Daxili audit funksiyası hər il Bankda risklərin idarə olunması proseslərinin audit yoxlamasını apararaq, həm prosedurların münasibliyini, həm də Bankın prosedurlara riayət etməsini yoxlayır. Daxili Audit bütün qiymətləndirmələrin nəticələrini rəhbərliklə müzakirə edir və nəticə və tövsiyələr haqqında Audit Komitəsinə hesabat verir.

Risklərin ölçülməsi və hesabat sistemləri. Bankın riskləri həm adi şəraitdə yaranması ehtimal edilən zərəri, həm də statistik modellər əsasında maksimal faktiki zərərlərin qiymətləndirilməsi olan gözlənilməyən zərərləri əks etdirən metoddan istifadə etməklə ölçülür. Modellər keçmiş təcrübədən əldə edilmiş və iqtisadi şəraitləri nəzərə almaqla düzəlişlər edilmiş ehtimallardan istifadə edir. Bundan əlavə, Bank baş verməsi ehtimal edilməyən ağır hadisələr əslində baş verdiyi təqdirdə ən pis hadisələrin ssenari modellərini hazırlayır.

Risklərin monitorinqi və nəzarət edilməsi ilk öncə Bankın müəyyən etdiyi limitlərə əsaslanır. Belə limitlər Bankın biznes strategiyasını və bazar mühitini, eləcə də Bankın qəbul etmək istədiyi risk səviyyəsini əks etdirir və bu zaman əsas diqqət ayrı-ayrı sahələrə yetirilir. Bundan əlavə, Bank bütün risk və əməliyyat növləri üzrə ümumi risk həcmi ilə bağlı olaraq ümumi risk daşımaq qabiliyyətinə nəzarət edir və bu qabiliyyəti qiymətləndirir.

Bütün fəaliyyət növləri üzrə əldə edilmiş məlumat risklərin təhlil və nəzarət edilməsi və tez aşkar olunması məqsədilə yoxlanılır və işlənilir. Mütəmadi olaraq sənaye sahəsi, müştəri və coğrafi risklər haqqında məlumat təqdim edilir.

Həddindən artıq risk konsentrasiyası. Konsentrasiya biznes tərəfdaşlarının oxşar iş fəaliyyəti ilə məşğul olmasından, iş növünün eyni coğrafi regionda yer almasından, eyni iqtisadi xüsusiyyətlərə malik olması və nəticədə iqtisadi, siyasi və ya digər şərtlərdəki dəyişikliklərin həmin biznes tərəfdaşlarının müqavilələrdə göstərilmiş şərtlərin yerinə yetirilməsi imkanlarına oxşar təsir göstərməsindən yaranır. Konsentrasiya Bankın fəaliyyətinin xüsusi coğrafi yerlərə və sənaye sahələrinə təsir göstərən dəyişikliklərə həssaslığını göstərir.

Həddindən artıq risk konsentrasiyasının təsiri altına düşməmək üçün, Bankın daxili siyasət və prosedurlarına diversifikasiyalı portfelin dəstəklənməsinə yönəlmiş xüsusi prinsiplər daxil edilir. Müəyyən edilmiş risk konsentrasiyası müvafiq qaydada nəzarət və idarə olunur.

Kredit riski. Bankın sifarişçiləri, müştəriləri və ya biznes tərəfdaşları müqavilə öhdəliklərini yerinə yetirmədikləri üçün Bankın zərər çəkməsi riskidir. Bank kredit riskini ayrı-ayrı biznes tərəfdaşları və coğrafi və sənaye konsentrasiyaları üzrə Bankın qəbul etməyə hazır olduğu riskin həcmi üzrə limitləri müəyyən etməklə və həmin limitlərə riayət edilməni monitorinq etməklə idarə edir və nəzarət altında saxlayır.

Bank kredit keyfiyyətinin yoxlanılması prosesini təsis etmişdir ki, girovun müntəzəm qaydada yenidən baxılması da daxil olmaqla biznes tərəfdaşlarının krediti ödəmək qabiliyyətlərində mümkün dəyişikliklərin tez müəyyən edilməsi təmin edilsin. Biznes tərəfdaşları üzrə limitlər kredit riskinin təsnifləşdirilməsi sistemindən istifadə etməklə müəyyən edilir. Bu sistem hər bir biznes tərəfdaşına müntəzəm olaraq yenidən baxılmalı olan risk reytinqini təyin edir. Kredit keyfiyyətinin yenidən baxılması prosesi Banka məruz qaldığı risklər nəticəsində potensial zərəri qiymətləndirmək, lazımi tədbirləri görmək və kredit riskinə qarşı adekvat kapital təqdim etmək imkanını yaradır.

Bankın müştərilərə verdiyi zəmanətlər əsasında Bank tərəfindən onların adından ödənişlər aparmaq zərurəti yarana bilər. Müştərilər bu ödənişləri Banka akkreditivin şərtləri əsasında qaytarırlar. Onlar Bankı kredit risklərinə oxşar risklərə məruz qoyur, bunlar da eyni nəzarət prosesləri və qaydaları ilə azaldılır.

Qarşılıqlı hesablaşma haqqında əsas razılaşmaların və girov razılaşmalarının istifadə edilməsi nəticəsində riskin azalması nəzərə alınmadan, konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatın komponentləri üzrə kredit riskinin maksimal həcmini, daha yaxşı onların balans dəyərləri təqdim edir.

Maliyyə alətləri ədalətli dəyərlə qeydə alınanda göstərilən balans dəyərləri dəyərin dəyişməsi nəticəsində gələcəkdə yarana bilən riskin maksimal həcmini deyil, kredit riskinin cari həcmini əks etdirir.

Kreditlə bağlı təəhhüd riskləri. Bank müştərilərə zəmanətlər verir. Həmin zəmanətlər Bankın müştərilərin adından ödənişlər aparmağını tələb edə bilər. Müştərilər bu ödənişləri Banka akkreditivin şərtləri əsasında qaytarırlar. Onlar Bankı kreditlərlə oxşar risklərə məruz qoyur, bunlar da eyni nəzarət prosesləri və qaydaları ilə azaldılır.

Maliyyə vəziyyəti haqqında hesabatın komponentləri üzrə kredit riskinin maksimal həcmi, qarşılıqlı hesablaşma haqqında əsas razılaşmaların və girov razılaşmalarının istifadə edilməsi nəticəsində riskin azalmasını nəzərə almadan, daha yaxşı həmin komponentlərin balans dəyərləri ilə əks etdirilir.

23. Risklərin İdarə Olunması (davamı)

Maliyyə aktivlərinin sinifləri üzrə kreditin keyfiyyəti. Maliyyə aktivlərinin kredit keyfiyyəti Bankın daxili kredit reytinqləri ilə idarə olunur. Aşağıdakı cədvəldə Bankın kredit reytinqi sisteminə əsaslanaraq maliyyə vəziyyəti haqqında konsolidasiya edilmiş hesabatın kreditlə bağlı sətirlərində aktivlərin sinifləri üzrə kredit keyfiyyəti göstərilir.

		Vaxtı keçməmiş və dəyərsizləşməmiş					
2017	**Qeyd**	**Yüksək reytinq**	**Standart reytinq**	**Qeyri-standart reytinq**	**Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş**	**Fərdi şəkildə dəyərsizləşmiş**	**Cəmi**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (kassa istisna olmaqla)	7	233,469	233	–	–	–	233,702
Kredit təşkilatlarından alınacaq məbləğlər	8	2,380	–	–	–	–	2,380
Müştərilərə verilmiş kreditlər	9						
Korporativ kreditlər		–	25,657	1,611	4,083	42,386	73,737
İstehlak kreditləri		–	32,625	681	3,285	15,596	52,187
Kiçik biznes kreditləri		–	3,435	480	3,442	14,417	21,774
İpoteka kreditləri		–	5,823	120	496	2,465	8,904
ARMB tərəfindən buraxılmış notlar və digər təşkilatların istiqrazları	10	32,678	–	–	–	–	32,678
Digər maliyyə aktivləri	14	–	3,163	–	–	–	3,163
Cəmi		**268,527**	**70,936**	**2,892**	**11,306**	**74,864**	**428,525**

		Vaxtı keçməmiş və dəyərsizləşməmiş					
2016	**Qeyd**	**Yüksək reytinq**	**Standart reytinq**	**Qeyri-standart reytinq**	**Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş**	**Fərdi şəkildə dəyərsizləşmiş**	**Cəmi**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (kassa istisna olmaqla)	7	200,188	26	–	–	–	200,214
Kredit təşkilatlarından alınacaq məbləğlər	8	30,755	–	–	–	–	30,755
Müştərilərə verilmiş kreditlər	9						
Korporativ kreditlər		–	50,208	22,319	10,246	44,778	127,551
İstehlak kreditləri		–	38,356	1,494	15,512	3,329	58,691
Kiçik biznes kreditləri		–	4,901	7,315	4,157	10,855	27,228
İpoteka kreditləri		–	6,740	714	410	1,642	9,506
ARMB tərəfindən buraxılmış notlar və digər təşkilatların istiqrazları	10	2,647	–	–	–	–	2,647
Digər maliyyə aktivləri	14	–	1,550	–	–	–	1,550
Cəmi		**233,590**	**101,781**	**31,842**	**30,325**	**60,604**	**458,142**

23. Risklərin İdarə Olunması (davamı)

Bankın monetar aktiv və öhdəlikləri üzrə coğrafi konsentrasiya aşağıdakı kimidir:

	2017				2016			
	Azərbay-can	İƏİT	MDB və digər xarici ölkələr	Cəmi	Azərbay-can	İƏİT	MDB və digər xarici ölkələr	Cəmi
Aktivlər								
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	111,193	152,482	20	263,695	58,389	160,271	1,312	219,972
Kredit təşkilatlarından alınacaq məbləğlər	2,380	–	–	2,380	30,755	–	–	30,755
Müştərilərə verilmiş kreditlər	118,554	–	–	118,554	185,126	–	–	185,126
ARMB-nin notları	32,678	–	–	32,678	2,647	–	–	2,647
Digər maliyyə aktivləri	3,163	–	–	3,163	1,550	–	–	1,550
	267,968	**152,482**	**20**	**420,470**	**278,467**	**160,271**	**1,312**	**440,050**
Öhdəliklər								
ARMB qarşısında öhdəliklər	–	–	–	–	20,023	–	–	20,023
Kredit təşkilatları qarşısında öhdəliklər	4,284	–	33	4,317	15,822	36,144	–	51,966
Müştərilər qarşısında öhdəliklər	343,137	–	–	343,137	314,794	–	–	314,794
Digər maliyyə öhdəlikləri	2,700	–	–	2,700	1,415	-	–	1,415
	350,121	–	33	350,154	352,054	36,144	–	388,198
Xalis aktivlər / (öhdəliklər)	**(82,153)**	**152,482**	**(13)**	**70,316**	**(73,587)**	**124,127**	**1,312**	**51,852**

Likvidlik riski və maliyyələşdirmənin idarə edilməsi

Likvidlik riski adi və ya fövqəladə şəraitdə ödəniş tarixində Bankın ödənişlə bağlı öhdəliklərini yerinə yetirə bilməməsi riskidir. Bu riski məhdudlaşdırmaq məqsədilə rəhbərlik gözlənilən pul vəsaitləri hərəkətlərinin hərtərəfli qiymətləndirilməsi üçün mürəkkəb sistem tərtib etmişdir. Likvidliyin idarə edilməsi metodları və hesabatları Bankın Müşahidə Şurası tərəfindən təsdiq edilir, Aktivlərin və öhdəliklərin idarə edilməsi Departamenti tərəfindən hazırlanır və hər ay Aktivlər və Öhdəliklər Komitəsi tərəfindən nəzərdən keçirilir.

Bank pul vəsaitlərinin hərəkəti gözlənilmədən kəsildiyi təqdirdə asanlıqla satıla bilən, bazarda fəal alınıb-satılan və müxtəlif aktivlər portfelinə sahibdir. Bundan əlavə, Bank ARMB-də məcburi ehtiyat saxlayır və bütün filialları, bankomatları və müxbir hesablardakı qalıqları üzrə çox effektiv pul vəsaitlərinin idarə edilməsi sistemini istifadə edir.

Likvidlik vəziyyəti Bank tərəfindən ARMB-nin təyin etdiyi minimum 30% likvidlik əmsalına əsaslanaraq fərdi şəkildə qiymətləndirilir və idarə edilir. 31 dekabr tarixinə bu əmsallar aşağıdakı kimi olmuşdur:

	2017	2016
Ani likvidlik əmsalı	47.11%	107.69%

Maliyyə öhdəliklərinin ödəniş tarixinə qalmış müddətlər üzrə təhlili. Aşağıdakı cədvəldə diskont edilməmiş müqavilə öhdəlikləri əsasında Bankın 31 dekabr tarixinə maliyyə öhdəlikləri ödəniş tarixinə qalmış müddətlər üzrə təqdim edilir. Tələb əsasında ödənilməli öhdəliklər ödəniş tələbinin mümkün olan ən tez tarixdə verilmiş hesab olunur. Bununla bərabər Bank gözləyir ki, müştərilərin çoxu Bank ödənişi aparmalı olduğu ən tez tarixdə ödənişi tələb etməyəcək və cədvəl keçmiş müddətlər üçün əmanətlərin tələb edilməsi haqqında məlumat əsasında Bankın hesabladığı gözlənilən pul vəsaitlərinin hərəkətlərini əks etdirmir.

23. Risklərin İdarə Olunması (davamı)

31 dekabr 2017	3 aydan az	3-12 ay	1-5 il	5 ildən artıq	Cəmi
Maliyyə öhdəlikləri					
ARMB qarşısında öhdəliklər	–	–	–	–	–
Kredit təşkilatları qarşısında öhdəliklər	547	184	1,152	4,398	6,281
Müştərilər qarşısında öhdəliklər	286,078	48,819	11,195	–	346,092
Digər maliyyə öhdəlikləri	2,700	–	–	–	2,700
Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri	**289,325**	**49,003**	**12,347**	**4,398**	**355,073**

31 dekabr 2016	3 aydan az	3-12 ay	1-5 il	5 ildən artıq	Cəmi
Maliyyə öhdəlikləri					
ARMB qarşısında öhdəliklər	354	20,249	–	–	20,603
Kredit təşkilatları qarşısında öhdəliklər	13,577	36,919	136	3,349	53,981
Müştərilər qarşısında öhdəliklər	250,530	54,931	5,778	7,969	319,208
Digər maliyyə öhdəlikləri	1,415	–	–	–	1,415
Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri	**265,876**	**112,099**	**5,914**	**11,318**	**395,207**

Aşağıdakı cədvəldə Bankın maliyyə təəhhüdləri və şərti öhdəlikləri müqavilə müddətləri üzrə göstərilir. Hər bir yerinə yetirilməmiş kredit öhdəliyi müştərinin icra edilməsini tələb edə bildiyi ən erkən tarixin təsadüf etdiyi müddətə daxil edilir. Buraxılmış maliyyə zəmanəti haqqında müqavilələrlə bağlı zəmanətin maksimal məbləği həmin zəmanətin tələb edilə bildiyi ən erkən dövrə aid edilir.

	3 aydan az	3-12 ay	1-5 il	5 ildən artıq	Cəmi
2017	13,390	26,669	69,275	10,140	119,474
2016	15,469	21,826	64,498	8,833	110,626

Bank gözləyir ki, şərti öhdəliklərin və ya təəhhüdlərin hamısının öhdəlik müddəti tamamlanana qədər yerinə yetirilməsi tələb olunmayacaqdır.

Bankın öz öhdəliklərini ödəmək qabiliyyəti eyni müddət ərzində aktivlərin ekvivalent məbləğini reallaşdırmaq qabiliyyətinə əsaslanır.

Bank hər hansı bir təşkilatdan və ya fiziki şəxsdən əhəmiyyətli vəsait almır. Ödəmə müddətlərinin təhlili hər hansı konkret müddətdə əhəmiyyətli mənfi müddətlərin olmasını göstərmir.

Müştərilər qarşısında öhdəliklərə fiziki şəxslərin müddətli depozitləri daxildir. Azərbaycan qanunvericiliyinə uyğun olaraq Bank bu depozitləri əmanətçinin tələbi ilə qaytarmalıdır (Qeyd 17).

Bazar riski. Bazar riski maliyyə alətlərinin ədalətli dəyərinin və ya onlar üzrə gələcək pul axınlarının faiz dərəcələri və valyuta məzənnələri kimi bazar parametrlərində dəyişikliklər nəticəsində tərəddüd etməsi riskidir. Bank əhəmiyyətli kapital, korporativ sabit gəlir və ya törəmə alətlərə malik deyildir.

Faiz dərəcəsi riski. Faiz dərəcəsi riski maliyyə alətlərinin ədalətli dəyərinin və ya onlar üzrə gələcək pul axınlarının faiz dərəcəsinin artması/azalması nəticəsində ucuzlaşması/bahalaşması riskidir.

31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə Bankın dəyişən faiz dərəcələri ilə alətləri olmamışdır.

Valyuta riski. Valyuta riski maliyyə alətinin dəyərinin xarici valyuta dərəcələrində dəyişikliklərə görə tərəddüd etməsi riskidir. Bank özünün maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə qüvvədə olan xarici valyuta məzənnələrindəki dəyişikliklərin təsir göstərməsi riskinə məruzdur.

Aşağıdakı cədvəllər 31 dekabr tarixinə Bankın qeyri-ticarət monetar aktivləri və öhdəlikləri və proqnozlaşdırılmış pul vəsaitləri hərəkətləri üzrə əhəmiyyətli riskə məruz qaldığı valyutalar göstərilir. Təhlil, bütün digər göstəricilərin sabit qalması şərti ilə, valyuta dərəcəsinin AZN-ə qarşı məntiqi dərəcədə mümkün olan hərəkətinin konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata təsirini (valyutaya qarşı həssas olan qeyri-ticarət monetar aktivlərin və öhdəliklərin ədalətli dəyərinə görə) hesablayır. Kapitala təsir konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata təsirdən fərqlənmir.

23. Risklərin İdarə Olunması (davamı)

Cədvəldə mənfi məbləğ konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda və ya kapitalda potensial xalis azalmanı, müsbət məbləğ isə xalis potensial artmanı əks etdirir.

Valyuta	Məzənnədə artım, % 2017	Vergidən əvvəl mənfəətə təsir 2017	Məzənnədə artım, % 2016	Vergidən əvvəl mənfəətə təsir 2016
ABŞ dolları	8.43	1,630	13.43	1,955
Avro	11.13	(39)	10.35	101

Valyuta	Məzənnədə azalma, % 2017	Vergidən əvvəl mənfəətə təsir 2017	Məzənnədə azalma, % 2016	Vergidən əvvəl mənfəətə təsir 2016
ABŞ dolları	(3.99)	(772)	(4.55)	(662)
Avro	(3.30)	12	(1.78)	(17)

Əməliyyat riski. Əməliyyat riski sistemlərin nasazlığı, işçilərin səhvi, saxtakarlıq və ya xarici hadisələr nəticəsində yaranan riskdir. Nəzarət sistemi işləməyəndə əməliyyat riskləri nüfuza xələl gətirə, hüquqi nəticələrə və ya maliyyə zərərlərinə gətirib çıxara bilər. Bank bütün əməliyyat risklərinin aradan götürülməsini güman edə bilməz, lakin nəzarət sistemi və potensial risklərin izlənməsi və onlarla bağlı tədbirlərin görülməsi həmin risklərin idarə edilməsi üçün effektiv alət ola bilər. Nəzarət sisteminə vəzifələrin səmərəli bölüşdürülməsi, giriş, təsdiqləmə və tutuşdurma prosedurları, heyətin təlimləndirilməsi və qiymətləndirilməsi prosesləri, eləcə də daxili auditdən istifadə daxildir.

24. Maliyyə Alətlərinin Ədalətli Dəyəri

		Ədalətli dəyərin ölçülməsi üçün istifadə edilən göstəricilər			
	Qiymətləndirmə tarixi	Fəal bazarda müəyyən edilmiş qiymətlər (Səviyyə 1)	Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (Səviyyə 2)	Əhəmiyyətli müşahidə edilməyən giriş məlumatları (Səviyyə 3)	Cəmi
Ədalətli dəyərlə ölçülən aktivlər					
ARMB tərəfindən buraxılmış notlar və digər təşkilatların istiqrazları	31 dekabr 2017	32,618	–	60	32,678
Ədalətli dəyəri açıqlanan aktivlər					
Kredit təşkilatlarından alınacaq məbləğlər	31 dekabr 2017	–	–	2,380	2,380
Müştərilərə verilmiş kreditlər	31 dekabr 2017	–	–	118,554	118,554
Ədalətli dəyəri açıqlanan öhdəliklər					
ARMB qarşısında öhdəliklər		–	–	–	–
Kredit təşkilatları qarşısında öhdəliklər	31 dekabr 2017	–	–	4,317	4,317
Müştərilər qarşısında öhdəliklər	31 dekabr 2017	–	–	343,137	343,137

24. Maliyyə Alətlərinin Ədalətli Dəyəri (davamı)

		Ədalətli dəyərin ölçülməsi üçün istifadə edilən göstəricilər			
	Qiymətləndirmə tarixi	Fəal bazarda müəyyən edilmiş qiymətlər (Səviyyə 1)	Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (Səviyyə 2)	Əhəmiyyətli müşahidə edilməyən giriş məlumatları (Səviyyə 3)	Cəmi
Ədalətli dəyərlə ölçülən aktivlər					
ARMB tərəfindən buraxılmış notlar və digər təşkilatların istiqrazları	31 dekabr 2016	2,587	–	60	2,647
Ədalətli dəyəri açıqlanan aktivlər					
Kredit təşkilatlarından alınacaq məbləğlər	31 dekabr 2016	–	–	30,755	30,755
Müştərilərə verilmiş kreditlər	31 dekabr 2016	–	–	185,126	185,126
Ədalətli dəyəri açıqlanan öhdəliklər					
ARMB qarşısında öhdəliklər		–	–	20,023	20,023
Kredit təşkilatları qarşısında öhdəliklər	31 dekabr 2016	–	–	51,966	51,966
Müştərilər qarşısında öhdəliklər	31 dekabr 2016	–	–	314,794	314,794

Ədalətli dəyərlə əks etdirilməmiş maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri. Aşağıda Bankın konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatında ədalətli dəyərlə əks etdirilməmiş maliyyə alətlərinin balans dəyərləri və ədalətli dəyərləri siniflər üzrə müqayisə edilir. Cədvəldə qeyri-maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərləri təqdim edilmir:

2017	Balans dəyəri	Ədalətli dəyər	Tanınmamış gəlir/(zərər)
Maliyyə aktivləri			
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	263,695	263,695	–
Kredit təşkilatlarından alınacaq məbləğlər	2,380	2,380	–
Müştərilərə verilmiş kreditlər	156,602	156,602	–
Digər maliyyə aktivləri	3,163	3,163	–
Maliyyə öhdəlikləri			
ARMB qarşısında öhdəliklər	–	–	–
Kredit təşkilatları qarşısında öhdəliklər	4,317	4,317	–
Müştərilər qarşısında öhdəliklər	343,137	343,137	–
Digər maliyyə öhdəlikləri	2,700	2,700	–

2016	Balans dəyəri	Ədalətli dəyər	Tanınmamış gəlir/(zərər)
Maliyyə aktivləri			
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	219,972	219,972	–
Kredit təşkilatlarından alınacaq məbləğlər	30,755	30,755	–
Müştərilərə verilmiş kreditlər	222,976	222,976	–
Digər maliyyə aktivləri	1,550	1,550	–
Maliyyə öhdəlikləri			
ARMB qarşısında öhdəliklər	20,023	20,023	–
Kredit təşkilatları qarşısında öhdəliklər	51,966	51,966	–
Müştərilər qarşısında öhdəliklər	314,794	314,794	–
Digər maliyyə öhdəlikləri	1,415	1,415	–

24. Maliyyə Alətlərinin Ədalətli Dəyəri (davamı)

Ədalətli dəyərləri balans dəyərlərinə təxmini bərabər olan aktivlər. Tez satıla bilən və ödəmə müddəti qısa (üç aydan az) olan maliyyə aktivləri və öhdəlikləri ilə bağlı olaraq ehtimal edilir ki, onların balans dəyərləri təxminən ədalətli dəyərlərinə bərabərdir. Bu fərziyyə həmçinin müddətsiz depozitlərə və xüsusi ödəmə müddəti olmayan əmanət hesablarına da tətbiq edilir.

Amortizasiya olunmuş dəyərlə uçota alınan maliyyə aktivləri və maliyyə öhdəlikləri. Kotirovka olunan edilmiş notların ədalətli dəyəri hesabat tarixində kotirovka edilmiş bazar qiymətlərinə əsaslanır. Kotirovka olunmayan alətlərin, müştərilərə verilmiş kreditlərin, müştəri depozitlərinin, kredit təşkilatlarından alınacaq məbləğlərin, kredit təşkilatları qarşısında öhdəliklərin və digər maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri oxşar şərtləri, kredit riski və ödəniş tarixinədək qalmış müddəti olan borc alətlərinin cari dərəcələri əsasında gələcək pul vəsaitlərinin hərəkətini diskont etməklə qiymətləndirilir.

25. Aktiv və Öhdəliklərin Ödəmə Müddətləri üzrə Təhlili

Aşağıdakı cədvəldə aktiv və öhdəliklər onların qaytarılması və ya ödənilməsi gözlənilən müddətlər üzrə təhlil edilir. Bankın müqavilə ilə nəzərdə tutulmuş diskont edilməmiş ödəniş öhdəlikləri Qeyd 23-də "Risklərin idarə edilməsi" bölməsində göstərilir.

	2017			2016		
	Bir ilədək	**Bir ildən çox**	**Cəmi**	**Bir ilədək**	**Bir ildən çox**	**Cəmi**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	263,695	–	263,695	219,972	–	219,972
Kredit təşkilatlarından alınacaq məbləğlər	2,380	–	2,380	30,755	-	30,755
Müştərilərə verilmiş kreditlər	95,181	23,373	118,554	159,807	25,319	185,126
ARMB-nin notları	32,618	60	32,678	26	2,621	2,647
Əmlak və avadanlıqlar	–	5,210	5,210	–	7,260	7,260
Qeyri-maddi aktivlər	–	7,952	7,952	–	7,933	7,933
Digər aktivlər	7,938	55	7,993	6,255	107	6,362
Cəmi	**401,812**	**36,650**	**438,462**	**416,815**	**43,240**	**460,055**
ARMB qarşısında öhdəliklər	–	–	–	20,023	–	20,023
Kredit təşkilatları qarşısında öhdəliklər	663	3,654	4,317	49,729	2,237	51,966
Müştərilər qarşısında öhdəliklər	333,225	9,912	343,137	302,391	12,403	314,794
Cari il üzrə mənfəət vergisi öhdəlikləri	1,708	–	1,708	–	–	–
Təxirə salınmış mənfəət vergisi öhdəlikləri	–	2,370	2,370	–	3,077	3,077
Digər öhdəliklər	5,772	159	5,931	5,203	156	5,359
Cəmi	**341,368**	**16,095**	**357,463**	**377,346**	**17,873**	**395,219**
Xalis	**60,444**	**20,555**	**80,999**	**39,469**	**25,367**	**64,836**

Ödəmə müddətlərinin təhlili hər hansı konkret müddətdə əhəmiyyətli mənfi müddətlərin olmasını göstərmir. Bu səbəbdən, rəhbərlik Bankın bu müsbət müddətləri saxlaya biləcəyini güman edir.

26. Əlaqəli Tərəflər haqqında Məlumatların Açıqlanması

BMS 24 *"Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması"* standartına uyğun olaraq tərəflər o halda əlaqəli hesab edilir ki, bir tərəf digər tərəfə nəzarət etmək və ya maliyyə və ya əməliyyat qərarlarının qəbul edilməsində mühüm təsir göstərmək iqtidarında olsun. Hər bir potensial əlaqəli tərəf münasibətlərini nəzərdən keçirdikdə, diqqət bu münasibətlərin yalnız hüquqi formasına deyil, mahiyyətinə də yönəldilməlidir.

Əlaqəli tərəflər əlaqəli olmayan tərəflərin həyata keçirə bilmədiyi əməliyyatlarda iştirak edə bilər və əlaqəli tərəflər arasında əməliyyatlar əlaqəli olmayan tərəflər arasında əməliyyatlarla eyni şərtlər, müddət və məbləğdə aparılmaya bilər.

YKB və KFS əhəmiyyətli sayda müəssisələrə birbaşa və ya dolayı nəzarət edir və onlara əhəmiyyətli təsir göstərir. Bank bu müəssisələrlə kreditlərin verilməsi, depozitlərin götürülməsi, pul vəsaitləri ilə hesablaşmalar və valyuta əməliyyatları da daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq, bank əməliyyatlarını həyata keçirir.

Əlaqəli tərəflərlə əməliyyatlar üzrə cari qalıqlar aşağıda göstərilir:

	2017		2016	
	Baş müəssisə	Ümumi nəzarət altında olan müəssisələr	Baş müəssisə	Ümumi nəzarət altında olan müəssisələr
1 yanvar tarixinə kreditlər üzrə qalıqlar, ümumi	–	–	–	352
İl ərzində verilmiş kreditlər	–	502	–	–
İl ərzində ödənilmiş kreditlər	–	–	–	(352)
Digər hərəkətlər	–	2	–	–
31 dekabr tarixinə kreditlər üzrə qalıqlar, ümumi	–	**504**	–	–
31 dekabr tarixinə dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla	–	(2)	–	–
31 dekabr tarixinə kreditlər üzrə qalıqlar, xalis	–	**502**	–	–
1 yanvar tarixinə depozitlər üzrə qalıqlar, ümumi	–	–	**50,026**	–
İl ərzində yerləşdirilmiş depozitlər	57,803	–	80,000	–
İl ərzində ödənilmiş depozitlər	(57,803)	–	(130,259)	–
Digər hərəkətlər	–	–	(125)	–
Məzənnə fərqindən gəlir/zərər	–	–	358	–
31 dekabr tarixinə depozitlər üzrə qalıqlar, ümumi	–	–	–	–
31 dekabr tarixinə dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla	–	–	–	–
31 dekabr tarixinə depozitlər üzrə qalıqlar, xalis	–	–	–	–
1 yanvar tarixinə depozitlər	–	–	–	–
İl ərzində qəbul edilmiş depozitlər	–	961	–	–
İl ərzində ödənilmiş depozitlər	–	(961)	–	–
Digər hərəkətlər	–	–	–	–
31 dekabr tarixinə depozitlər	–	–	–	–
31 dekabr tarixinə cari hesablar	**144,593**	**85**	**143,801**	**1,500**

31 dekabr 2017-ci il tarixinə baş müəssisə ilə cari hesabların qalığı 144,593 AZN təşkil etmişdir. Hesabat ili ərzində baş müəssisə tərəfindən 1.15% faiz dərəcəsi ilə 57,803 AZN məbləğində depozit yerləşdirilmişdir.

	2017		2016	
	Baş müəssisə	Ümumi nəzarət altında olan müəssisələr	Baş müəssisə	Ümumi nəzarət altında olan müəssisələr
1 yanvar tarixində götürülmüş kreditlər	–	**36,071**	–	**103,361**
İl ərzində götürülmüş kreditlər	–	–	–	–
İl ərzində ödənilmiş kreditlər	–	(34,042)	–	(70,122)
Digər hərəkətlər	–	(632)	–	2,725
Məzənnə fərqindən gəlir/zərər	–	(1,397)	–	107
31 dekabr tarixində götürülmüş kreditlər	–	–	–	**36,071**

26. Əlaqəli Tərəflər haqqında Məlumatların Açıqlanması (davamı)

Əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərc aşağıdakı kimidir:

	2017		2016	
	Baş müəssisə	Ümumi nəzarət altında müəssisələr	Baş müəssisə	Ümumi nəzarət altında müəssisələr
Faiz gəlirləri	780	2	143	35
Faiz xərcləri	–	(685)	–	(1,848)
Haqq və komissiya gəlirləri	–	27	–	29
Haqq və komissiya xərcləri	(117)	(18)	(121)	(77)
Ümumi və inzibati xərclər	(138)	(643)	(168)	(693)

5 üzvdən ibarət olan (2016: 5 üzv) əsas idarəedici heyətə ödənişlər aşağıdakılardan ibarətdir:

	2017	2016
Əmək haqqı və qısamüddətli ödənişlər	1,533	1,198
İşçilər üzrə hesablanmış digər xərclər	(1)	101
Əsas idarəedici heyətə cəmi ödənişlər	**1,532**	**1,299**

27. Kapitalın Adekvatlığı

Bank tərəfindən kapitalın idarə edilməsinin məqsədləri (i) Palatanın müəyyən etdiyi kapital tələblərinin yerinə yetirilməsi, (ii) Bankın daim fəaliyyət göstərən müəssisə kimi fəaliyyətinə davam etməsi imkanının təmin edilməsi və (iii) fəaliyyətin həyata keçirilməsi və səhmdar dəyərinin maksimal artırılması məqsədilə yüksək kredit reytinqinin və kapitalın adekvatlığı əmsallarının təmin edilməsidir. Palatanın müəyyən etdiyi Kapitalın adekvatlığı əmsallarına uyğunluq hər ay Bankın Baş İcraçı Direktoru və Baş Mühasibi tərəfindən nəzərdən keçirilən və imzalanan həmin əmsalların hesablanmasını təsvir edən hesabatlar vasitəsilə nəzarət edilir. Kapitalın idarə edilməsinin digər məqsədləri hər il qiymətləndirilir.

Bank iqtisadi şərait və fəaliyyətinin risk xüsusiyyətləri dəyişdikcə kapital strukturunu idarə edir və müvafiq düzəlişlər aparır. Kapitalın strukturunu saxlamaq və ya bu strukturda düzəlişlər etmək məqsədilə Bank səhmdarlara ödənilən dividend ödənişlərinin məbləğində düzəlişlər edə, kapitalı səhmdarlara qaytara bilər. Keçən illərlə müqayisədə məqsəd, siyasət və proseslərdə ciddi dəyişikliklər baş verməmişdir.

Palata hər bankdan və ya bank qrupundan: (a) səhmdar kapitalını minimal 50,000 AZN (2016: 50,000 AZN) səviyyəsində saxlamağı; (b) cəmi nizamnamə kapitalının risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ('cəmi kapital əmsalı') müəyyən edilmiş minimal 10% (2016: 10%) səviyyəsində və ya daha yuxarı səviyyədə saxlamağı və (c) 1 dərəcəli kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ('1 dərəcəli kapital əmsalı') müəyyən edilmiş minimal 5% (2016: 5%) səviyyəsində və ya daha yuxarı səviyyədə saxlamağı tələb edir.

Rəhbərlik hesab edir ki, Bank 2017-ci il ərzində Azərbaycan qanunvericiliyinə uyğun kapitalın adekvatlığı əmsalına riayət etmişdir. Lakin, 2017-ci ildə minimum kapital tələbi pozulmuşdur. Baş müəssisə 2017-ci il ərzində bankın minimum kapital tələbinə uyğun olması üçün əlavə kapital qoyuluşu həyata keçirmişdir.

31 dekabr 2017-ci il tarixinə Bankın kapitalın adekvatlığı əmsalı Palatanın tələblərinə əsasən aşağıdakı kimi olmuşdur:

	2017	2016
1-ci dərəcəli kapital	59,494	50,925
2-ci dərəcəli kapital	13,125	3,950
Çıxılsın – kapitaldan tutulmalar	(8,543)	(8,465)
Cəmi məcmu kapital	**64,076**	**46,410**
Risk dərəcəsi üzrə ölçülmüş aktivlər	**312,251**	**315,967**
1-ci dərəcəli kapitalın adekvatlığı əmsalı	16.30%	13.47%
Cəmi kapitalın adekvatlığı əmsalı	20.48%	14.69%

28. Hesabat Tarixindən Sonrakı Hadisələr

Hesabat tarixindən sonrakı dövrdə hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında nəzərə alınmalı olan heç bir mühüm hadisə, əməliyyat və ya düzəliş aşkar edilməmişdir.